

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Sayı: 8 (24.390)

17 fevral 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

## Prezident həftəsi

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq and içdi:

- Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs "Qurani-Şərif"ə əl basaraq and içdi:

– Əlimi "Qurani-Şərif"ə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli-mənəvi dəyərlərə və ənənələrə sadiq olacağam, onları daim uca tutacağam.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndi.

Prezident İlham Əliyev təzim edərək Azərbaycan Respublikasının Dövlət Bayrağını öpdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söylədi.

***

Fevralın 14-də andiçmə mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gəlib müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək xatirəsini ehtiramla yad ediblər.

***

Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.



# Tarixi qaliblər yazır

*Tarixə ehtiramla*

Bir əsrdə iki dəfə istiqlaliyyətə qovuşmağa müvəffəq olmuş xalqımızın dövlətçilik təcrübəsi, Şərqdə ilk demokratik respublika və müsəlman dünyasında ilk dünyəvi dövlət qurmağa nail olmaq tarixin yaddaşına əbədi həkk olunmaq deməkdir. 33 il öncə Azərbaycan xalqı yenidən ayağa qalxdı, öz haqqını – azadlığını, müstəqilliyini tələb etdi. Ümummilli Liderin dövlətçilik ənənələrini bərpa etmək missiyasını öz üzərinə götürməsi ilə Qurtuluşdan tərəqqiyə, tərəqqidən Zəfərə aparan yolun əsası qoyuldu.

*(ardı 2-ci səhifədə)*



# Ən yaxın silahdaş

Hər bir insan ömrünün müxtəlif tale yazısı, bir də bu taleyi yaşayanın öz taleyini yazmağı var. O da var ki, insanın hər bir əməlinin kökündə yaxşılıq, xeyirxahlıq dayanırsa, onun taleyi daha da işıqlı olur. Çünki bu, bir həqiqətdir ki, insan xoş əməllər ilə çox şeyi dəyişə bilər. Azərbaycan xalqı olaraq biz bu həqiqətin ən gözəl nümunəsini Birinci vitse-prezident Mehriban xanım Əliyevanın timsalında gördük. Dövlətdə və ailədə böyük missiyaları yerinə yetirən, həm səngərdə, həm kürsüdə Ali Baş Komandanın yaxın silahdaşına çevrilən Mehriban xanım Əliyeva xeyirxahlıq və mərhəmət işığında bütün azərbaycanlıların qəlbində yüksək taxt qurub.

Mehriban xanım Birinci vitse-prezident seçilən günə qədər və ondan sonrakı dövrdə də əsl insan, əsl vətənpərvər olaraq cəmiyyət üçün dəyərli və səmərəli işlər görməyə çalışıb və başqalarına yaxşılıq etmək bacarığını fəaliyyətində əsas prinsip kimi götürüb. Bununla da o Azərbaycan xanımının ən müasir modelini yarada bilib. Xüsusi vurğulamaq istəyirəm ki, bəlkə də, hamıya asan görünə bilər dövlət başçısının ömür-gün yoldaşı olmaq, rəhbər yanında dövləti təmsil etmək. Amma bu, böyük məsuliyyət, bacarıq, qabiliyyət və cəsarət tələb edir. Mehriban xanımın özü müsahibələrinin birində birinci xanım missiyasının məsuliyyətini və mahiyyətini şərh edərək demişdir: *"Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür..."*

*(ardı 3-cü səhifədə)*

Yaradan, yaşadan, qoruyan... 3

Ordumuzun Bayraktar gücü 5

Mehriban xanım Əliyeva: milli maraqlara xidmət, Heydər Əliyev ideyalarına sədaqət 6

Nəcib əməllər naminə 8

Bağışla, mən bilmədim, sən Salamməlik perronundan keçən sonuncu qatarsan! 15

# Tarixi qaliblər yazır

## yaxud XXI əsrin möhtəşəm iyirmiliyi + 7



(əvvəli 1-ci səhifədə)

Tarixin ədəbiyyat yaddaşında belə bir müdrik kəlam var: keçmişə əsaslanıb gələcəyi görmək. 2003-cü ildə Azərbaycan xalqı da məhz həmin keçmişə əsaslanıb gələcək üçün həmrəy oldu. Dahi şəxsiyyətin uzaqgörən siyasətinin uğurla davam etdirilməsinə – İlham Əliyevə səs verdi. Siyasi olimpin zirvəsinə qalxanda ***"Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm"***, – deyə verdiyi sözün üstündə duran lider inkişafının yeni mərhələsinə qədəm qoyan Azərbaycanı tarix üçün kifayət qədər qısa sayıla biləcək zaman kəsiyində böyük tərəqqi yoluna, dünyada lider mövqeyə yüksəltdi.

### *Ata vəsiyyətini yerinə yetirmək xoşbəxtliyi*

Mürəkkəb geosiyasi şəraitdə, dünya siyasətində toqquşan və kəsişən strateji maraqların fonunda Azərbaycan torpaqlarının işğaldan azad edilməsinə müvəffəq olmaq sadə məsələ deyil. Məsələnin mahiyyəti, məzmunu daha dərin və genişdir. Bütün cəbhələrdə – istər hərb meydanında, istər diplomatiya müstəvisində, istərsə də informasiya platformasında tarixi qələbənin memarı Prezident cənab İlham Əliyev Azərbaycanın möhtəşəm Zəfərini dəyərləndirərkən ***"Müzəffər xalq kimi gəldik. ...Döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik"***, – deyə vurğulayıb.

İşğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin aparılması, strateji planlaşdırma, nəhəng icra və əlaqələndirmə prosesi, minatəmizləmə, infrastrukturun bərpası və artıq insanların geri qaytarılması – bütün bunlar qısa zamanda görülən böyük işlərdir. Bizim yaşadığımız dövrdə dünyanın heç bir yerində darmadağın edilmiş geniş bir ərazinin yenidən qurulduğu ikinci belə məkan yoxdur.

### *Azərbaycansayağı tarix dərsi*

***"İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın"***, – deyən cənab Prezident işğaldan azad olunmuş bütün ərazilərdə bayrağımızı göylərə çəkdi. Qarabağın azadlığı Azərbaycan tarixinin müstəqillikdən sonra ən böyük hadisəsidir. Biz xoşbəxt nəsilik ki, canlı əfsanənin şahidi olduq. Müzəffər Sərkərdə 100 illik problemə – erməni separatizminə birdəfəlik son qoydu. Separatizm simvolikasını əks etdirən bütün yazılar tarixin zibilxanasına atıldı.

***"Bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq"***, – deyən cənab Prezidentin ötən il oktyabrın 15-də və dekabrın 21-də Xankəndiyə tarixi səfərləri, növbədənkənar prezident seçkilərində ailə üzvləri ilə birlikdə Xankəndidə səs verməsi Ulu Öndər Heydər Əliyevin 100 illiyinə, prezidentliyinin 20 illiyinə ən layiqli töhfə, xalqın qarşısında verdiyi sözləri tutmasına ən yaxşı sübut, bu günə qədər görülən işlərin yekun hesabatı idi. Başqa sözlə desək: ***"Mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!"***

### *Davamlı inkişafa təminat + 7*

Bu gün Azərbaycanın dinamik və dayanıqlı inkişafı, müstəqilliyini möhkəmləndirərək yeni strateji zirvələr fəth etməsi dünya şöhrətli siyasətçi cənab İlham Əliyevin adı ilə bağlıdır. Bu isə artıq Dünya Liderliyini çoxdan təsdiqləyən dövlət başçısının ölkəmizin gələcəyinə obyektiv baxışının, yaxud Azərbaycan reallığının ifadəsidir.

***"Əsl siyasət real, konkret iş görməkdən ibarətdir"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə böyük infrastruktur layihələri gerçəkləşdirilir. Öz qərarlarının verə bilən, milli və dövlət maraqlarını qoruyan, xarici siyasətini milli maraqlarının əsasında formalaşdıran dövlət qurmaq mövcud olduğumuz regionda asan məsələ deyil. Çox qısa zamanda həm dövləti, həm ordunu, həm də cəmiyyəti formalaşdırmaq və Qarabağ kimi çətin və taleyüklü məsələni birdəfəlik həll etmək tarixi missiyadır.

Növbədənkənar prezident seçkilərində inamlı qələbə qazanan Azərbaycan Prezidentinə xalqın sevgisini təkrar gördük. Seçkilər başa çatandan sonra ölkənin hər yerində xalqın küçələrə, meydanlara axışaraq öz Liderini təbrik etməsi, bayram əhvali-ruhiyyəsinə boyanan ölkə bir daha doğru seçim etdiyimizi və növbəti 7 il ərzində inkişaf, durmadan irəliyə getmək və sabitlik üçün həmrəy olduğumuzu göstərdi. Naxçıvan da öz muxtariyyətinin 100-cü ilində yenidən onun inkişafına stimul yaradan rəhbərin ətrafında birləşdi. Əsrin 20 ilini birlikdə addımladığı lideri növbəti 7 ildə də öz inkişafının mərkəzindəki əsas fiqur olaraq görmək istədiyini bəyan etdi.

Cənab Prezidentin fevralın 14-də keçirilən andiçmə mərasimi ilə, bu tarixi an ilə yeni dövrə qədəm qoyarkən müstəqil Azərbaycanın yeni yüksəliş, tərəqqi və uğurlar dövrünün başlanması bizdə gələcəyə dair daha nikbin və qətiyyətli olmağa əminlik yaradır.

### *Erməni separatçılarının tabutuna vurulan son mismar*

Cənab Prezidentin andiçmə mərasimindəki geniş proqram, belə demək mümkündürsə, hesabat xarakterli çıxışı bu günə qədər görülmüş işlər və gələcək hədəflər haqqında kifayət qədər açıq informasiya yükü daşıyır. Artıq Azərbaycanda yeni dövr başlayır. Bu, dövrün böyük nailiyyətləri olacaq, buna heç bir şübhə yoxdur. Azərbaycan xalqının həmrəyliyi əsas uğurlarımızdan biridir. İkinci Qarabağ müharibəsində parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Cənab Prezidentin sözləri ilə desək: ***"Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır"***.

Bu gün Azərbaycan özümüzü tam təmin edən ölkə olaraq ikitərəfli formatda əməkdaşlığın tərəfdarıdır və xarici siyasət də buna hesablanıb – bərabərhüquqlu münasibətlər. Ölkəmizin bu günə qədərki müxtəlif sahələrdə inkişafı və qazanılmış uğurlar, beynəlxalq münasibətlər sistemindəki yeri, eyni zamanda geostrateji mövqeyimizlə bağlı nəqliyyat qovşağı kimi fəaliyyəti, bunun bizə gətirdiyi iqtisadi və maliyyə müstəqilliyi bu gün heç kimdən asılı olmayan Azərbaycanı inamla, uğurla inkişaf etdirir. Növbədənkənar prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi isə ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün suveren ərazilərində keçirildi və ölkə başçısı ailə üzvləri ilə birlikdə Xankəndidə səs verdi: ***"Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi."***

### *Blokadadan rekordsmen diyara transformasiya*

Yüz ilə yaxındır ki, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş, olduqca əhəmiyyətli nəqliyyat dəhlizlərinin qovşağında və geostrateji mövqeyə malik bir bölgədə yerləşən Naxçıvan bu gün sənaye bölgəsinə çevrilib. Vaxtilə ağır şəraitdə yaşayan Naxçıvan bu gün enerji ixracatçısı qismində Avropanın enerji təhlükəsizliyinə dəstək vermək əzmindədir. Bu torpaqlar tarixin heç bir mərhələsində bugünkü qədər gözəl, abad və güclü olmayıb. Ölkə Prezidentinin də dediyi kimi: ***"Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir"***.

Prezident cənab İlham Əliyevin diqqət mərkəzində olan Naxçıvanda "blokada" və "inkişaf" anlayışları birgə assosiasiya olunur. Naxçıvan Ümummilli Lider Heydər Əliyevin görmək istədiyi formada inkişaf edir, müasirləşir.

Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizi açılandan sonra isə Naxçıvan beynəlxalq kommunikasiyaların bir nömrəli ünvanına və dayaq nöqtəsinə çevrilməklə bu dəhliz vasitəsilə Türk dünyasını birləşdirəcək. Prezident cənab İlham Əliyevin sözləri ilə desək: ***"Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq"***.

### *Dünya lideri: O bunu qəbul etdirdi*

Ölkə başçısının möhtəşəm siyasi analizləri, uzaqgörən strateq düşüncələri, strateji yanaşmaları, bütün mövcud proseslərə ən incə detallarına qədər dəqiq və konkret bələd olması Onun hazırkı dünya siyasətinə, geostrateji vəziyyətə hakimliyi fonunda olduqca aydın mənzərə yaradır. Artıq bütün dünya qəbul etməlidir ki, Qafqaz regionunda vəziyyət dəyişir və bu dəyişikliklərin böyük dərəcədə təşəbbüskarı Azərbaycandır.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dünyanın ən nüfuzlu liderlərindən biri olaraq qəbul edilməsi onun qlobal fəaliyyətinin məntiqi nəticəsidir. Cənab Prezidentin dünya lideri kimi özünü təsdiqləməsi isə belə əsaslandırılır: Türkiyə ilə münasibətləri strateji müttəfiqlik səviyyəsinə yüksəltdi, sarsılmaz bağlar yaratdı, ordumuzu modernləşdirdi, Qarabağdakı 30 illik işğala son qoydu, Qərbin dəstəklədiyi Ermənistanı məğlub edib bütün niyyətlərini puça çıxardı, Rusiya və Qərb arasında inanılmaz tarazlaşdırılmış siyasət həyata keçirdi, möhtəşəm bir diplomatiya yürütdü, həm meydanda, həm də siyasi masada qələbə qazandı. Kim nə deyirsə-desin, İlham Əliyevin dünya liderlərindən biri olması artıq qəbul edilmişdir. O bunu qəbul etdirdi.

### *Beynəlxalq aləmdə "Sözümüz imzamız qədər keçərlidir"*

Vətən müharibəsi təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil, eyni zamanda istər Cənubi Qafqaz regionunda, istərsə də Avrasiyada yeni geostrateji reallıqların təşəkkülünə səbəb olub. Asiyadan Avropaya doğru uzanan geniş coğrafiyada mühüm geostrateji məntəqələrdən olan Cənubi Qafqaz bölgəsində yeni reallıqlar fonunda saatlar Bakı vaxtı ilə qurulur. Yəni şərtləri qalib və üstün tərəf olan Azərbaycan diktə edir.

Prezident cənab İlham Əliyevin müstəqil və milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycanın regional liderə – bölgədə güc mərkəzinə, dünya siyasətində qüdrətli və nüfuzlu milli subyektə çevrilməsinə səbəb olub. İndi Azərbaycan beynəlxalq aləmdə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına üzv olan və ona rəhbərlik edən, BMT Baş Assambleyasından sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatında 120 dövlətin dəstəyini alan, bu hərəkata sədrlik edən dövlətdir.

### *Keçmişə hörmət, gələcəyə inamla*

Ulu Öndər Heydər Əliyev indiki və gələcək nəsillərə örnək ola biləcək bir fəaliyyət nümunəsi, ölkəmizin davamlı inkişafının uzunömürlülüyünü təmin edən siyasi məktəb miras qoyub. Ötən il sentyabrın 25-də Azərbaycan və Türkiyə prezidentlərinin Naxçıvana səfəri Ümummilli Liderin rəhbərliyi ilə buradan başlayan müstəqillik ideyalarının yeni məcrada inkişaf etdirilməsi, tarixi sənədlərin imzalanması, gələcək perspektiv hədəflərin müəyyənləşdirilməsi regiondakı Azərbaycan faktorunun və yaranmış yeni reallığın qəbul edilməsi fonunda olduqca əhəmiyyətlidir.

***"Biz hər zaman sözümüzə, vədimizə, imzamıza sadiq qalmışıq, dəyişməmişik və dəyişməyəcəyik. Yolumuz da, hədəfimiz də bəllidir və bu yola, bu hədəfə doğru daim inamla, qətiyyətlə irəliləyəcəyik!"*** bəyanından da göründüyü kimi, müstəqil Azərbaycan Böyük Yolun – Heydər Əliyev yolunun Müzəffər davamçısı olan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə strateji hədəflərinə doğru addım-addım irəliləyir. Prezident cənab İlham Əliyevin xalqa müraciətində dediyi kimi: ***"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm"***.

**Məmməd BABAYEV**



# Yaradan, yaşadan, qoruyan...

# Ən yaxın silahdaş

*(əvvəli 1-ci səhifədə)*

İllər öz sözünü dedi. Mehriban xanım ən çətin məsuliyyətin öhdəsindən ləyaqətlə gəldi. Necə? Özündə və həyat fəaliyyətində cəmləşdirdiyi ən ali, ən gözəl xüsusiyyətləri ilə... Deyirlər, həyatda hansı missiyanı yerinə yetirirsən yetir, hər şeydən əvvəl, Tanrının insana verdiyi ən ali, ən gözəl xüsusiyyətlərə malik olmalısan. Bəli, Birinci vitse-prezident Mehriban xanım Əliyeva vəzifəsindən, fəaliyyət istiqamətindən asılı olmayaraq, həyatda ən sadə prinsiplərə arxalanaraq ƏN YAXIN SİLAHDAŞ adını layiqincə daşımağa müvəffəq olub.

***Mərhəmət, insanpərvərlik və qayğı***

Mərhəmət insani dəyərlərin şahıdır, – deyirlər. Mehriban xanımın da bütün dövlətçilik və ictimai fəaliyyətindən mərhəmət qırmızı xətt kimi keçir. Yıxılanı ayağa qaldırmaq, kimsəsizə, köməyə ehtiyacı olana əl tutmaq və yardım etmək onun başlıca fəaliyyət istiqamətləridir. Mehriban xanımı indiyə kimi pak, təmiz və azad vicdan işığında yaşamaq və yaratmaq arzusu ilə gördük. O özünün də dediyi kimi, vəzifəsindən, fəaliyyət istiqamətindən asılı olmayaraq, həyatda ən sadə prinsiplərə arxalandı. Vicdan və ləyaqəti, mərhəmət və xoş niyyəti, ədalət və qarşılıqlı hörməti Tanrının insana verdiyi ən ali, ən gözəl xüsusiyyətlər kimi dəyərləndirir. Məhz bu dəyərlər işığında o, Azərbaycanının birinci xanımı olmaqla vətənpərvər, cəfakeş insana, şəfqətli anaya, fəal ictimai xadimə, xeyirxahlıq mücəssəməsinə çevrilərək ölkənin üzüzə durduğu ən müxtəlif problemlərdə cənab Prezidentlə çiyin-çiyinə verdi, insanların qəlbində yaxşılığa, mərhəmətə ümid işığı yandırdı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev çıxışlarının birində deyirdi ki, mənəviyyat olmayan yerdə haqdan, ədalətdən, düzgünlükdən söhbət gedə bilməz. İstənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərlərin özünə möhkəm dayaqlar tapması məhz nəcib, alicənab, kamil insanların əzmkar fəaliyyəti sayəsində mümkün olur. Bütün bunları özündə cəmləşdirən, həyat idealına çevirən Mehriban xanım Əliyevanın bütün fəaliyyətinin təməlində bir amal dayanır:

***Xoş niyyət***

Hansı işi görürsən gör, təməlində xoş niyyət dayanırsa, yolun daim açıq olacaq. Bu həqiqət min illərin sınağından çıxıb. Bu niyyətlə hər bir çətinliyin öhdəsindən uğurla gələcəksən, ətrafındakıların, cəmiyyətin, nəticə etibarilə, təmsil olunduğun dövlətin sevimlisinə çevriləcəksən. Mehriban xanım bütün yollara xoş niyyətlə çıxdı. Bu niyyətin başında isə bir hədəf dayanır: Azərbaycan dövlətinin şərəfini uca tutmaq, dövlətə uğur qazandırmaq! Məhz elə xoş niyyət ədalət işığında ölkəmizin haqlı mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində son dərəcə uğurlu nəticələrə imza atdı, dərin ictimai rəğbət qazandı.

Qarşılıqlı və təmənnasız hörməti onun timsalında ailəyə, ömürgün yoldaşına, dövlətinə göstərməsində gördük. Mehriban xanım xoşbəxtdir ki, bütün fəaliyyəti qarşılıqlı oldu. Cənab Prezident dövlətin ən çətin vəzifələrindən birini çox düzgün olaraq Mehriban xanıma həvalə etdi. Və həyat bunun düzgün addım olduğunu təsdiqlədi. Belə ki, Mehriban xanım qarşılıqlı hörmətlə Prezidentlə birlikdə dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə çalışmağı həyat amalına çevirdi.

***Xoş əməllər ən gözəl duaları qazandırır***

İnsan yaxşılıq etdikcə ən gözəl duaları qazanır. Mehriban xanım xoşməramlı fəaliyyəti ilə Azərbaycana və onun rəhbərinə ən gözəl duaları qazandırdı. O dualar ölkəmizin yoluna işıq saldı. O dualar Ali Baş Komandana və Onun müzəffər Ordusuna güc, qüvvət verərək Qələbə qazanmasına da vəsilə oldu. Qurub-yaratdığı, müstəqilliyini yaşatdığı dövlətin timsalında xəyallarındakı ən nəcib arzuları gerçəkliyə qovuşdurdu... Böyük Zəfərlə başa çatan Vətən müharibəsində də Birinci vitse-prezident Ali Baş Komandanın, ordumuzun və xalqımızın ən etibarlı dostu olduğunu göstərdi.

“ Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür... ”

***Bu gün hər birimiz müasir Azərbaycanın simvolu, xeyirxahlıq mücəssəməsi olan birinci xanım ilə fəxr edir, qürur duyuruq. Bizim nəslin bəxti gətirib ki, ölkəmizdə böyük dəyişiklik və proseslərin şahidi və iştirakçısıyıq. Səmimiyyəti, doğmalığı, xoş rəftarı ilə insanların qəlbində məskən salmağı bacaran Mehriban xanım Əliyeva sadəliyin zirvəsinə ucaldıqca, insanlığın, müdrikliyin zirvəsini də fəth etməyi bacara bilib.***

***✍ Sara ƏZİMOVA***
***“Şərq qapısı” qəzetinin baş redaktoru***

Tanrının parlaq obrazı, şah əsəri, ilahi güc mənbəyi! Bu dünyaya nəfəs verən, bəşəriyyətin gözlərinə işıq olub, ürəyinə atəş verən əzəli bir qüvvəsən, sən! Min illərdir, qaranlığa işıq saçan, ülkər kimi hey parlayan bir ulduzsan! Sədlərinə sığışmayan bir ümmansan! Sən Günəşsən! Tarixlərin gecəsini gündüzünə çevirmisən! Şəfəqinlə cahan nura boyanıb. Varlığının qüdrətini hər kəs duyur! Müdrikliyin qarşısında səcdədədir cümlə-aləm. Qibtə edir dünya sənin hünərinə! Ucalığın, ülviliyin ilham verir şairlərə! Nəğmə olur könüllərə mərhəmətin, nəvazişin, şəfqətin! Qalxan olub el-obana uca adın, ləyaqətin, səadətin, qeyrətin. Namusunu, şərəfini cəsurluqla hifz etmisən! Neçə-neçə savaşları dayandırıb iffətinin rəmzi olan müqəddəs baş örtüyün! Sən əzəldən pərvanətək ulusunun, yurd-yuvanın, el-obanın başına dolanmısan! Oğuz elinin müqəddəs ocağının odunu sönməyə qoymamısan! Sən ey türk qadını! Dünyaya örnəkdir adın! Adını şərəfinlə tarixlərə yazmısan! Sən əzəldən mübarizlik nümunəsi olmusan!

Necə də şərəflidir “Azərbaycan qadını” adını daşımaq! Azərbaycan tarixinin parlaq qadın simalarının qutsal missiyaları canlandıqca gözümdə, fəxarət abidəsi ucalır qəlbimdə! İsmətinə, zərifliyinə, mətinliyinə, dəyanətinə heyranlıq duyursan hünər, cəsarət mücəssəməsi Azərbaycan qadınının! Odur dünyaya Tomrisin timsalında sərkərdə, Sara xatının timsalında diplomat qadın nümunəsi! Ədəb, mərifət və ədalətlə taxta ucalan Şirin, Məhinbanu, Nüşabə! Döyüş meydanına cəngavərtək atılan vətənpərvər Burla xatın, Banuçiçək! Qadınların azadlıq hüququnu tərənnüm edən ziyalı Məhsəti Gəncəvi! Fətəli xanın sədaqətli həyat yoldaşı vəfadar Tuti Bikə! Zamanın gərdişini, tarixin gedişatını dəyişən, Azərbaycan qadınına ehtiramın ifadəsi olaraq şərəfinə Şərqdə ilk abidə ucaldılan Möminə xatın! Şuşada ədəbiyyat məclisinin yaradıcısı, xeyirxah Xurşidbanu Natəvan! Döyüş meydanında qoç Koroğlunun silahdaşı, qeyrət rəmzi Nigar! Qaçaq Nəbinin dayağı, şücaətli, qoçaq Həcər! Bizim tarixi irsimizdir əfsanəyə çevrilərək təfəkkürümüzə hopan həmin mərd qadınlar... Onlar Azərbaycan qadınının uca adının unudulmaz müəllifləridir.

Bu gün bu ali duyğuları, müsbət əxlaqi keyfiyyətləri, nəcib xüsusiyyətləri özündə təcəssüm etdirən bir xanımlar xanımı var! Çağdaş zamanımızın Nigarı, Həcəri, Tomrisi, Sara xatını! Banuçiçəyi, Burla xatını! Şirini, Nüşabəsi, Mömინə xatını! Odur dünya xanımlarına örnək! Kiçikdən-böyüyə hər kəsin könlündə taxt quran, xeyirxah əməlləri ilə ürəklərdə dərin məhəbbət qazanan, özünün ifadəsi ilə desək, “Bizim Mehribanımız”... Xalqa müraciətinin sonunda “Sizin Mehriban” imzasını qoyaraq bu ifadə ilə yurdunun insanlarına öz doğmalığını, mehribanlığını göstərib. Onu xalqa sevdirən təkcə sadəliyi, səmimiyyəti, təvazökarlığı deyil. O həm də insanların qayğıları ilə maraqlanan, gün-güzəranına biganə qalmayan xalq himayədarı kimi hər kəsin sevimlisinə çevrilib, insanların mənəvi dostu olub. Şəhid ailələrinə, qazilərə diqqət, yaşlılara qayğı, hörmət, uşaqlara mehr-məhəbbət, qadınlara dəstək Azərbaycan qadınının şəfqətinin nəcib göstəricisi kimi Mehriban xanımın milli xarakteri fonunda inikas olunub. Onun müsbət insani keyfiyyətləri ilə yanaşı, ictimai-siyasi fəaliyyəti o qədər zəngin və parlaqdır ki, onu bütün incəliklərinə qədər təsvir etmək, sadalamaq qeyri-mümkündür.

Son dərəcə qiymətli keyfiyyətləri özündə əks etdirən Mehriban xanım Əliyeva cəsur, mərd ürəkli qadın, sədaqətli həyat yoldaşı, qayğıkeş ana olmaqla yanaşı, həm də səriştəli, məharətli, nümunəvi, uzaqgörən ictimai xadimdir.

Deyirlər ki, hər uğurlu kişinin arxasında ağıllı bir qadın dayanır. Mehriban xanım da məhz belə qadınlardandır. O ən çətin situasiyalarda dövlət başçımızın yanında olub, xalqın Qalib Liderinin böyük məsuliyyətinin icrasında ona dəstək göstərib. 44 günlük Vətən müharibəsində qazandığımız Qələbəyə aparan təlatümlü yollarda Mehriban xanım Əliyeva ölkə Prezidenti ilə çiyin-çiyinə dayanıb. Təsadüfi deyil ki, Prezident cənab İlham Əliyev işğaldan azad olunan ərazilərimizə baxış zamanı, yenidənqurma işləri ilə tanış olarkən daim Mehriban xanım Əliyeva ilə yan-yana olub, bu mühüm səfərlərdə onunla birgə böyük işlərə imza atıb. Çünki Azərbaycanın Zəfər zirvəsinə ucalmağında onun əvəzolunmaz xidmətləri olub. İşğaldan azad olmuş torpaqlarımız üçün ən böyük siyasi mücadilələrdən birini məhz birinci xanım verib. Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında və haqlı tərəfin sübut və faktlarla nümayişinin altında Mehriban xanım Əliyevanın böyük imzası var.

...Ulular deyiblər ki, qadın olan yer cənnətə bərabərdir. Harada ki, qadın var orada səadət var, sülh, sabitlik, əmin-amanlıq, isti ocaq var! Qoy isti ocağımız sönməz, əbədi məşələ çevrilsin! Adı daim uca tutulan, müqəddəs amal və ideya uğrunda vuruşan, ən ağır vəziyyətlərdə belə sarsılmayan, mətanət və mərdlik rəmzi olan iradəli Azərbaycan qadını bəşəriyyət naminə ruhunda daşıdığı məsuliyyət hissi, mərhəmət, vəfa, etibar, duyğuları, ən gözəl geyimi olan isməti, namusu, qeyrəti ilə daim zirvələrə ucalsın!

**✍ Gülcamal TAHİROVA**

# Həmrəyliyin, iradənin təntənəsi:

## separatçı tabutuna vurulan son mismar




Fevralın 14-ü ölkəmizin ictimai-siyasi həyatında olduqca əlamətdar hadisə, Zəfər seçkisinin Müzəffəri cənab İlham Əliyevin andiçmə mərasimi ilə yadda qaldı. Dövlət başçısı mərasim zamanı söylədiyi dərinməzmunlu nitqində Azərbaycanın siyasi, hərbi, iqtisadi, mədəni, bir sözlə, bütün sahələrdə qazandığı uğurlardan, gələcək hədəflərdən söhbət açdı, Qərbin çaldığı hər havaya qol qaldırıb oynayan Ermənistanı və onun havadarlarını pərişan edib yerinə oturdan növbəti mühüm mesajlar verdi.

Nitq boyu diqqətçəkən məqamlar arasında hərbi qüdrətin artırılması, azad olunan torpaqların bərpası, yoxsulluğun minimuma endirilməsi, əhalinin sosial müdafiəsinin möhkəmləndirilməsi, ideoloji işin gücləndirilməsi, neft və qeyri-neft sektorunun inkişafı xüsusi yer aldı. Bu tarixi məqamlara televiziya ekranlarından, mətbuatdan şahidlik edən ölkənin çoxminli auditoriyası, siyasi analitiklər, ekspertlər üçün ən yaddaqalan anlardan biri, heç şübhəsiz, seçki günü cənab Prezidentin Xankəndidə səsverməsinin rəmzi mənasının açıqlanması idi. Belə ki, prezident seçkilərinin ilk dəfə ölkəmizin bütün ərazilərində keçirilməsinin çoxəsrlik tariximizdə xüsusi yerə malik olduğunu diqqətə çatdıran Qalib Lider bu addımı ilə bədxahları tarixi həqiqətlə barışmağa sövq etdiyini bildirdi. Sitat: ***"...məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi..."***

Dünyanın hazırkı geosiyasi vəziyyəti, ölkələrarası soyuq müharibələr, münaqişələr zəminində əlverişli nəqliyyat-logistika imkanları, eləcə də investisiya cəlbediciliyi, iqtisadi səmərəliliyi, zəngin yeraltı, yerüstü sərvətləri baxımından olduqca əhəmiyyətli mövqedə dayanan Azərbaycana qarşı xarici təhdidlərin olacağı gözlənilirdi. Ancaq 44 günlük Vətən müharibəsi və ardınca cərəyan edən ictimai-siyasi hadisələr, lokal xarakterli antiterror tədbirləri, sərhəddə baş verən son təxribatın nəticəsi də bir daha sübut etdi ki, xalqımızın birliyi, iradəsi, ordumuzun qüdrəti qarşısında heç bir fitnəkar qüvvə dayana bilməz. İllərdir, haqsızlıq, ədalətsizlik qarşısında lal süküta qərq olan AŞPA-nın yersiz davranışları fonunda Zəfər seçkisinə yollanan qalib xalqın nümayəndələrinin, məxsusən də gənclərin Qalib Liderinə parlaq qalibiyyət yaşatması isə bu həmrəyliyin, birliyin, iradənin sarsılmazlığından, davamlılığından xəbər verdi. Bəli, dünya bir daha şahid oldu ki, Qarabağda dastan yazan, milli dəyərlərə bağlı Azərbaycan gəncliyinin qanında vətənpərvərlik çövlan edir və bu Vətənə, dövlətə, dövlətçiliyə bağlılığı qırmaq mümkünsüzdür. Ölkə Prezidenti bir çox çıxışlarında diqqətə çəkdiyi gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, ideoloji xəttin möhkəmləndirilməsi məsələsinin andiçmə mərasimindəki nitqində də yeni dövrün çağırışları baxımından mühümlüyünü vurğuladı: ***"...gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi – bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz..."***

Müharibədən sonrakı mərhələdə dövlət siyasətinin əsas prioritetləri sırasında ərazilərin minalardan təmizlənməsi və azadlığına qovuşan torpaqların yenidən bərpası dayanır ki, artıq ötən bir neçə il ərzində bu istiqamətlərdə ciddi irəliləyişlər əldə olunub. Ən təqdirədici məqam isə Azərbaycanın bu prosesi təkbaşına, heç bir beynəlxalq təşkilatdan yardım, dəstək almadan həyata keçirməsidir. Aparılan tədbirlər çərçivəsində indiyədək 120 min hektardan çox ərazi minalardan təmizlənib. Lakin çirklənən ərazinin miqyası genişdir və bu da təəssüfedici halların yaşanmasına yol açır. Ermənistanın beynəlxalq prinsiplərdən boyun qaçırması, doğru mina xəritələrini Azərbaycan tərəfinə təqdim etməməsi nəticəsində bu günədək 300-dən çox insan həyatını, sağlamlığını itirib. Qarşı tərəfin çirkin kampaniyalarına baxmayaraq, dövlətimizin qurucuhuq, abadlıq siyasəti uğurla davam edir, şəhər, qəsəbə və kəndlərimiz müasir görkəminə qovuşur, soydaşlarımız öz el-obalarına qayıdırlar. Hazırda bütün sosial infrastruktur yenidən qurulur, xəstəxanalar, məktəblər, idman obyektləri, yollar, 130-dan çox tunel və körpü inşa edilir. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası sayəsində öz yurdlarına köçən zəngilanlılar, füzulililər, laçınlılar kimi, yaxın gələcəkdə Xocalı, Xankəndi sakinləri də bu sevinci yaşayacaqlar. Andiçmə mərasimində çıxışı zamanı Prezident cənab İlham Əliyev məhz bu məqama da xüsusi toxunaraq diqqətə çatdırdı ki, bu günə qədər, təxminən, 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə qayıdıb, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Planda azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirmək vardır. Ümumilikdə, Böyük Qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və bu müddətdə 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq...

Ölkə rəhbəri çıxışı zamanı dövlət siyasətinin vacib vəzifələrindən birinin bərpa-olunan enerji ilə bağlı olduğunu bildirdi. Sitat: ***"...Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən, günəş, külək və hidro – su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən, 10 min meqavat..."*** Bu xüsusda onu da vurğulamaq lazımdır ki, ölkəmizin bərpaolunan enerji ixracı siyasətində Naxçıvan Muxtar Respublikasının mövcud potensialından istifadə də əsas prioritetdir. Bu məqsədlə işçi qrupu yaradılıb, 2023-cü ilin əvvəlindən beynəlxalq enerji şirkətlərinin nümayəndələri ərazilərə baxış keçirib, kameral araşdırmalar aparılaraq potensial müəyyənləşdirilib. Sentyabrın 29-da Naxçıvan şəhərində Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın həmsədrliyi ilə keçirilən Azərbaycan-Türkiyə III Enerji Forumu və "Naxçıvan – Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransı da bu məsələdə həlledici əhəmiyyətə malik olub. Konfrans çərçivəsində külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin yaradılması və onun ən azı 1000 MVt-nın ixrac edilməsi planları çərçivəsində beynəlxalq enerji şirkətləri ilə imzalanan əməkdaşlıq sənədləri Naxçıvanın Türkiyə üzərindən "yaşıl enerji"nin istehsalı – ixracının mənbəyinə çevriləcəyinə əsaslı zəmin yaradacaq. Nəzərə alsaq ki, 2024-cü ildə Azərbaycan COP29-a – dünya miqyasında ən böyük beynəlxalq konfransa ev sahibliyi edəcək və bu konfransın əsas məqsədi qlobal iqlim dəyişiklikləri ilə mübarizədir, o zaman Azərbaycanın bərpaolunan enerji sahəsində qarşıya qoyduğu hədəflərə çatmaq üçün cari ildə böyük imkanlar yaranacağını əminliklə söyləmək olar...

Ümumilikdə, ölkə Prezidenti andiçmə mərasimindəki çıxışında Azərbaycanın daxili və xarici siyasətinin prioritet istiqamətlərinə bir daha aydınlıq gətirdi və əsas məqsədin iqtisadi inkişafa və sosial rifaha xidmət etdiyini vurğuladı. Nitqinin sonunda bir daha Azərbaycan-Ermənistan münasibətlərinə toxunan Qalib Lider ölkəmizin bütün məsələlərdə beynəlxalq hüquqa və ədalət prinsiplərinə əsaslanan mövqeyinin dəyişilməyəcəyini, istənilən halda qarşıya qoyulan hədəflərə çatılacağına əminliyini bildirdi. Heç bir kənar qüvvənin "dəmir yumruğ"un siyasi iradəsinə, qətiyyətinə təsir edə bilməyəcəyinə bir daha böyük inam yaradan dövlətimizin başçısı növbəti dəfə araya nifaq toxumları səpən qüvvələrə hədlərini göstərdi: ***"...yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq. Ona görə hesab edirəm ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun..."***

**Nail ƏSGƏROV**

## Polis orqanlarına yeni xidməti avtomobillər təqdim olunub

### *Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin inzibati binası istifadəyə verilib*



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin yeni inzibati binası istifadəyə verilib.*

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli əvvəlcə muxtar respublikanın polis orqanlarına təqdim olunan yeni xidməti avtomobillərə baxıb.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-mayor Süleyman Neymətov məlumat verib ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə 16 yeni xidməti avtomobil təqdim edilib.

Bildirilib ki, 4 "BMW" markalı avtomobil yol-patrul xidməti, "JAC-T8" markalı 12 avtomobil isə mühafizə polisi, post-patrul xidməti və Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsi üçün nəzərdə tutulub. 2023-cü il istehsalı olan avtomobillər yüksək manevr imkanları və müasir təchizatı ilə müxtəlif operativ tapşırıqların icrasına imkan verəcək. Müasir interyerə malik avtomobillərin hər biri ən yeni rəqəmsal radiorabitə, səsgücləndirici və sayrışan işıq sisteminə malikdir.

Sonra səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dəmir Yolu Nəqliyyatında Polis Şöbəsinin yeni inzibati binasında yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, üçmərtəbəli binanın foyesində Ümummilli Lider Heydər Əliyevin və Prezident cənab İlham Əliyevin hüquq-mühafizə orqanları ilə keçirdiyi görüşləri əks etdirən fotoguşə yaradılıb. Şöbədə növbətçi, qəbul, xüsusi vasitələrin saxlanması otaqları, kriminalistik tədqiqatlar, istintaq və təhqiqat, təşkilati-inspektor qrupları üçün və digər xidməti otaqlar, eləcə də server otağı, arxiv, iclas zalı və bufet yerləşir. Xidmətin operativ təşkili üçün otaqların hər biri ən müasir avadanlıqlarla təchiz olunub.

Binada mərkəzləşdirilmiş havalandırma və istilik sistemi də quraşdırılıb.



## Növbəti bir qrup şəhid ailəsinin Ağbulaq İstirahət Mərkəzində istirahəti təmin edilib

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının maliyyə dəstəyi və "Naxçıvan şəhid ailələri" İctimai Birliyinin təşkilatçılığı ilə 40 nəfər şəhid ailəsi üzvünün Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunub.

15-16 fevral tarixlərini əhatə edən 2 günlük proqram çərçivəsində şəhid ailəsi üzvləri Ağbulaq İstirahət və Xizək Mərkəzində yaradılan bütün şəraitlərdən faydalanıblar. İlkin mərhələdə şəhid ailələri səmərəli vaxt keçirib, şəhid övladları xizək sürüb, müxtəlif əyləncə attraksionlarından istifadə ediblər.

Qeyd edək ki, bundan əvvəl Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının maliyyə dəstəyi ilə şəhid ailələrinin 31 yanvar – 1 fevral və 5-6 fevral tarixlərdə Ağbulaq İstirahət Mərkəzində istirahətləri təmin olunub. Ümumilikdə isə 140 nəfər şəhid ailəsi üzvü şuranın bu dəstəyindən yararlanıb.

# Ordumuzun Bayraktar gücü




## İstiqamət bəllidir – Türk Əsrinə yolçuluq artıq başlayıb

Bəli, İlham Əliyev növbəti dəfə yüksək səs faizi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi və Qalib xalqın Lideri kimi and içdi. Dövlət başçısı andiçmə mərasimindəki çıxışında Azərbaycanın yaxın gələcək üçün bir çox prioritet istiqamətlərinə toxundu, siyasi fəaliyyətində qarşıya qoyduğu bir sıra hədəflərin anonsunu verdi. Burada ən vacib məqamlardan biri Azərbaycanın müasir qütbləşmiş dünyada yerinin və fəaliyyət istiqamətlərinin bir daha yüksək kürsüdən səsləndirilməsi idi ki, cənab İlham Əliyev də məhz bunu etdi. Həm də açıq mətnlə, necə deyərlər, bütün dünyanın anlayacağı dillə. Sitat: ***"Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır. Əgər kimsə hesab edir ki, biz başqa yerdə ailə axtarmalıyıq, deyə bilərəm ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər…"***

Vurğulamaq lazımdır ki, türk dövlətlərinin təşkilatlanması işində Azərbaycan və Türkiyənin çox böyük rolu olub. 1992-ci ildən başlayaraq Türkdilli ölkələrin dövlət başçılarının müxtəlif zirvə görüşləri keçirilib, 2009-cu ildə Naxçıvanda keçirilən IX zirvə görüşündə imzalanan Naxçıvan Bəyannaməsi isə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması yolunda mühüm addım kimi tarixə yazılıb. Ötən dövrdə Prezident cənab İlham Əliyevin Mərkəzi Asiya, həmçinin türkdilli ölkələrə mütəmadi səfərləri, eyni zamanda həmin dövlətlərin başçılarının və hökumət nümayəndələrinin Azərbaycana səfərləri Türk dünyası ilə əlaqələrimizin daha da möhkəmləndirilməsindən xəbər verir.

Azərbaycan liderinin türkdilli dövlətlər arasında təmasların inkişafında göstərdiyi səylər hər zaman təqdir edilib. Prezident İlham Əliyev tərəfindən irəli sürülən təklif və təşəbbüslərin həyata keçirilməsi türkdilli ölkələr arasındakı əlaqələrin inkişafına əsaslı töhfə verib. Bu sıraya TÜRKPA və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun qərargahlarının Bakıda yerləşməsi, müxtəlif zirvə görüşlərinin keçirilməsi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın inkişafına yönəlmiş digər məsələlər aiddir. Cənab İlham Əliyevin türkdilli ölkələr arasında inteqrasiya prosesinin geniş vüsət almasında Azərbaycanın körpü rolunu oynaması, habelə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk Dövlətləri Təşkilatına çevrilərək yeni statusda fəaliyyət göstərməsində xidmətləri böyükdür. Təsadüfi deyil ki, Vətən müharibəsində qazandığımız Qələbə Türk dövlətləri tərəfindən böyük sevinclə qarşılanmış, Türkdilli Ölkələrin Dövlət Başçıları Şurası 2021-ci il noyabrın 12-də Azərbaycan Prezidentini "Türk Dünyasının Ali Ordeni" ilə təltif etmişdir.

Prezident inaqurasiya mərasimindəki çıxışında türk dövlətləri haqqında bir maraqlı məqama da toxundu. Dövlət başçısı bildirdi: ***"Bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır".***

Həqiqətən, bu gün Qərbdən Şərqə doğru uzanan türk dövlətləri böyük ərazi və böyük iqtisadi gücdür. Məsələn, Türkiyə 80 milyonluq insan kapitalı ilə son illərdə qazandığı iqtisadi, hərbi və siyasi gücü sayəsində dünyada böyük nüfuz sahibidir. Bu gücün nəticəsidir ki, Türkiyə dünyada və regionda gedən proseslərə aktiv müdaxilə etmək imkanlarına sahibdir. Qazaxıstan isə iqtisadi cəhətdən Mərkəzi Asiya regionunun dominant ölkəsi hesab olunur. Əlvan metallurgiya, kömürçıxarma, kimya, maşınqayırma, yüngül və yeyinti sənayesi olan Qazaxıstan dünyanın altıncı taxıl istehsalçısıdır. 6,5 milyard ton həcmində sübut edilmiş neft ehtiyatlarına görə dünya neft ehtiyatlarının 3,2 faizinə sahibdir. Həmçinin neftin proqnozlaşdırılan ehtiyatlarına görə yalnız Xəzər dənizinin Qazaxıstan sektoruna aid olan ərazilərində 17 milyard tondan çox olduğu təxmin edilir. Eyni zamanda Qazaxıstanın aşkar edilmiş təbii qaz ehtiyatları 1,82 trilyon kubmetr olmaqla dünya ehtiyatlarının 1,7 faizini təşkil edir. Və yaxud Özbəkistanı götürsək, bu ölkə qızıl ehtiyatına görə dünyada 4-cü yerdə durur. Eyni zamanda çox qızıl yatağında, təqribən, 4000 ton qızıl ehtiyatı var. Özbəkistanda uran ehtiyatı da çoxdur. Radioaktiv metalların ehtiyatına görə dünyada 7-ci sırada dayanan Özbəkistan həm də dünyanın 5-ci pambıq istehsalçısıdır.

Türkmənistan da zəngin təbii qaz və neft ehtiyatlarına görə dünyada ön sıralardadır. Hesablamalara görə, Türkmənistan təbii qaz ehtiyatına görə dünyada 5-ci yeri tutur və 30-dan çox qızıl yatağında... 

Türkmənistan da zəngin təbii qaz və neft ehtiyatlarına görə dünyada ön sıralardadır. Hesablamalara görə, Türkmənistan təbii qaz ehtiyatına görə dünyada 4-cü yerdə durur. Nisbətən zəif inkişaf etmiş Qırğızıstan da mühüm aqrar-sənaye bölgəsinə aiddir. 1,4 milyon hektardan çox əkin sahələrinə malik bu ölkə dünyanın üçüncü böyük yun istehsalçısıdır. Bu cür misalların sayını daha da artıra bilərik.

Bu gün müşahidəçi ölkələr də daxil (Macarıstan, Türkmənistan, Şimali Kipr Türk Respublikası) 200 milyonluq nüfuza malik Türk Dövlətləri Təşkilatına yalnız üzv dövlətlərin ümumi sahəsi 4 milyon 242 min 362 kvadratkilometrdir. Kifayət qədər böyük bir coğrafiyanı əhatə edən təşkilatın siyasi, iqtisadi, mədəni sahələrdə, təhlükəsizliyin təmin edilməsi istiqamətində birgə fəaliyyət göstərməsi artıq günün reallığıdır. Cənab İlham Əliyev də çıxışında bunu xüsusi olaraq vurğuladı: ***"Bundan güclü birlik ola bilərmi? Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".***

Beləliklə, istiqamət bəllidir. Türk Əsrinə yolçuluq artıq başlayıb…

**Səbuhi HƏSƏNOV**

## "Dəmir yumruq" yerdə də, göydə də həmişə başlarının üstündədir

Müzəffər Ordumuzun maddi-texniki bazasının modernləşdirilməsi və onun zərbə gücünün daim artırılması yeni tarixi missiya dövründə də ölkə Prezidenti cənab İlham Əliyevin daim diqqətində saxladığı prioritet məsələlərdəndir. Uğurla keçirilmiş və dövlət başçımızın inamla qalib gəldiyi 7 fevral – növbədənkənar prezident seçkilərindən dərhal sonra fevralın 9-da Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və oğlu Heydər Əliyevin Hərbi Hava Qüvvələrinin hərbi obyektlərində olması və silahlanmaya yeni qəbul edilən "Akıncı" hücum PUA-larının uçuşunu izləməsi də bu diqqətin bariz nümunəsidir. Artıq hamı görür ki, ölkəmizə qarşı hər cür təsir vasitələrini sınaqdan keçirən, amma hər dəfəsində ənənəvi olaraq uğursuzluğa düçar olanların çirkin niyyətlərinə qarşı öz ordumuzun gücü ən etibarlı sipər, onun silahları ən qətiyyətli zərbə vasitəsidir.

Son illərdə türk mühəndisliyinin simvolu halına gəlmiş, Liviyadan Qırğızıstana, Səudiyyə Ərəbistanından Ukraynaya qədər hər yerdə adını duyurmuş, Qarabağın düşmən işğalından azad olunmasında erməni hərbi texnikasını və canlı qüvvəsini şahin dəqiqliyi ilə bir-bir "dənləmiş" "Bayraktar" PUA-ları artıq bir "superstar" kimi də tanınaraq, hətta haqqında mahnılar belə qoşulmuşdur. Qardaş Türkiyənin yerli hərbi sənaye kompleksinin məhsulu olan müxtəlif çeşiddəki bu zərbə uçuş aparatları havadakı snayperlər kimi səbirlə gözləyib, düşmən hədəfini, həm də hədəfin istənilən nöqtəsini tək atışla sıradan çıxaran, bununla da mülki insanlara və infrastruktura zərər vurmayan texnologiya möcüzəsi olub Azərbaycanın da hərbi arsenalında mühüm yer tutmaqdadır. Dünyadakı analoqları ilə müqayisədə üstün taktiki və texnoloji keyfiyyətləri, münasib qiyməti və idarəolunması ilə seçilən, süni intellektin ən son tətbiqi səviyyəsinə sahib olan belə müasir silahlar bu gün revanşizm atəşinə tutulub +42 dərəcə qızdırma altında sayıqlayanların yuxusuna buzlu su effekti ilə təsir edib, növbəti hərbi təxribata əl atmamaları üçün də ciddi bir xəbərdarlıq siqnalıdır. Çünki Ukrayna şəhərlərində yaşayış binalarını, məktəbləri, xəstəxanaları, elektrik yarımstansiyalarını və ya yanacaqdoldurma stansiyalarını harada gəldi vuran məlum ölkə PUA-larından fərqli olaraq Səlçuk Bayraktarın PUA-ları özünə lazım hərbi hədəfi vurmaqda dünyanın bir nömrəli belə silahı olduğunu çoxdan sübut edib.

"Baykar" şirkətinin istehsalı olan və 13 min metr yüksəklikdə 100 kilometr radiusda kəşfiyyat apara bilən yeni nəsil "Akıncı" PUA-sı hələ 2022-ci ilin mayında ölkəmizdə keçirilən "Teknofest"də nümayiş olunmaq üçün üç ölkə üzərindən 2 min kilometr uçaraq Bakıya gəlmiş, qardaş ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ifadə etdiyi kimi onun timsalında Azərbaycan və Türkiyə bir "Akıncı" məsafəsi qədər yaxın olmuşdur. Beləcə, hələ Çanaqqala döyüşlərində, Bakının erməni vəhşiliyindən xilasında bütünləşərək Şuşada imzalanmış strateji müttəfiqlik Bəyannaməsi ilə ən yüksək səviyyədə olan və bütün dünyanın həsəd apardığı Türkiyə-Azərbaycan qardaşlığı hər iki dövlətin sahib olduğu hərbi-iqtisadi potensialı ilə bir sinerji effekti yaratmaqla qarşısında nə siyasi, nə də hər hansı bir hərbi gücün dayana bilməyəcəyini açıqca bəyan edirlər. Bir il əvvəl baş vermiş "Əsrin fəlakəti"ndə hamıdan əvvəl qardaşlıq köməyinə tələsmiş Azərbaycan da bu ölkədə könüllərin bayraqdarı olmaqla bunu sübut etmişdir.

Dünya tarixində ən yeni innovasiyaların ən çox hərbi müdafiə sahəsində yaranıb tətbiq olunduğu bir gerçəklikdir. Bu mənada, Bakıda Hərbi Qənimətlər Parkında çürük erməni ordusundan geriyə qalmış və bəzilərinin, hətta 1945-ci il istehsalı olan hərbi texnikalara baxanda 26 fevral gecəsi Xocalıda dinc insanlara qarşı törədilmiş cinayətlərin qisasının müzəffər Ordumuzun hərb meydanında necə aldığını bir daha görürük. "Bayraktar"larımızın səngərdə gizlənmiş xaçatryanları, tankları, topları, hətta anqara qapadılmış milyon dollarlıq hava hücumundan müdafiə sistemlərini necə tapıb məhv etdiyi barədə yayılan videoları isə düşmən heç zaman unutmayacaq. Çünki "dəmir yumruq" yerdə də, göydə də həmişə başlarının üstündədir.

**Əli CABBAROV**

***“Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində birgə olmalıdır... Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik, infrastruktur layihələri icra edirik. Eyni zamanda biz heç zaman insanların problemlərinə biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir və hesab edirəm ki, bu bütün dövlət qurumlarında çalışan insanların əsas borcu dur və vəzifəsidir.”***



# Mehriban xanım Əliyeva:
## milli maraqlara xidmət, Heydər Əliyev ideyalarına sədaqət

Hər bir xalqın uzaq və yaxın keçmişində onun taleyinə həlledici təsir göstərmiş, ölkəsinin adını həm milli, həm də bəşər tarixinə şərəflə həkk etmiş, əsrlər boyu formalaşmış milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini də uğurla müəyyənləşdirmiş dahilər çox deyil. Xoşbəxt o xalqdır ki, Vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər bir kəsə örnək olan, zəkası, dühası və istedadı ilə dünyada tanınan, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr etmiş tarixi şəxsiyyətləri var. Yaxın tariximizdə belə zirvəyə yüksələn dahi şəxsiyyətlərdən biri də xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur. Vətəni və milləti qarşısında misilsiz işlər görən, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı Ulu Öndər Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidmətlərindən biri də Azərbaycanın gələcək taleyində əvəzsiz rolu olan cənab İlham Əliyev kimi böyük şəxsiyyət və müdrik bir lider yetişdirməsi olmuşdur.

Azərbaycan dövləti, Azərbaycan xalqı cənab İlham Əliyevin rəhbərliyi altında gələcəyə, yüksəlişə və inkişafa doğru dahi şəxsiyyət Heydər Əliyevin əsasını qoyduğu yolla inamla irəliləyir və hər bir ölkə vətəndaşının fəxr edəcəyi, qürur duyacağı bir məkana çevrilir. Bu işdə ölkə Prezidentinin ən yaxın silahdaşı isə bütün fəaliyyətində Ulu Öndər irsinə sədaqət nümayiş etdirən, Birinci vitse-prezident, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır.

Xeyirxahlığı və nəcibliyi, humanizmi və bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəstxəti ilə daxil olan şəxsiyyətlərdən biridir. Vətən və xalq naminə fədakarlıq, müasir Azərbaycanın dinamik inkişafında, sosial məsələlərin həllində fəallıq, milli-mənəvi dəyərlərə sadiqlik, sərhəd tanımayan xeyirxahlıq, mərhəmət və şəfqət Mehriban xanım Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. Birinci xanımın çoxşaxəli fəaliyyəti Azərbaycanın yüksəlişinə, mədəniyyətimizin qorunmasına və təbliğinə, dövlətimizin sosial siyasətinin daha böyük uğurlar qazanmasına layiqli töhfələrini verir.

Bu gün tam əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Ulu Öndərin ideyalarını böyük əzmlə və sədaqətlə həyata keçirir. 2004-cü ilin mayından Ulu Öndər Heydər Əliyevin xatirəsinə ehtiram, ideyalarını yaşatmaq arzusu ilə yaradılan, onun adını daşıyan fonda rəhbərlik edən Mehriban xanım Əliyevanın təəssübkeşliyi, xeyir-duası, dəstəyi ilə həyata keçirilən irimiqyaslı layihələr, saysız-hesabsız xeyriyyəçilik tədbirləri həm ölkə daxilində, həm də ondan kənarda böyük əks-səda yaradır. Fond yarandığı gündən ictimai-siyasi həyatın bütün sahələrinə dərindən nüfuz etdi, çoxşaxəli layihələri ilə dövlət və vətəndaş həmrəyliyinin bariz nümunəsinə, əsl mərhəmət, şəfqət ünvanına çevrildi, ölkəmizdə xeyriyyəçilik hərəkatına böyük təkan verdi. Onun təhsil, səhiyyə, mədəniyyətlə bağlı layihələri isə mənəvi, tarixi, mədəni irsimizin qorunması işində müstəsna xidmətə malikdir. Təhsilin inkişafı sahəsində Mehriban xanımın vətənpərvərlik xidmətləri misilsizdir. Onun təşəbbüsü ilə “Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək” layihələri ilə yüzlərlə orta məktəb binası tikilmişdir.

Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunub saxlanmasıdır. Ulu Öndərin ölməz ideyaları və onların Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirilməsi ölkəmizin mədəni həyatında baş verən köklü dəyişikliklərin, böyük yüksəlişin əsasını təşkil edib.

Azərbaycan mədəniyyəti hazırda yeni islahatlar dövrünü yaşayır. Bu sırada Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən proqram və layihələr Azərbaycan mədəniyyətinin qorunmasına və dünyada təbliğ olunmasına layiqli töhfələr verir. Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə fond tərəfindən Azərbaycanın zəngin və tolerant tarixi irsinin, tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün ölkədə sistemli fəaliyyət təmin olunub. Bu baxımdan çox haqlı olaraq Heydər Əliyev Fondunun mədəniyyət sahəsində fəaliyyəti ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və Mehriban xanım həm də Azərbaycan mədəniyyətinin hamisi kimi qəbul olunur.

Mehriban xanım Vətən yolunda qəhrəmanlıq göstərən, Azərbaycanın ərazi bütövlüyünün bərpası, müstəqilliyi, ölkəmizin daha qüdrətli, daha möhkəm olması yolunda şəhid olan qəhrəmanlarımızın ailələrinə, sağlamlığını itirən zabit və əsgərlərə, Vətən müharibəsi iştirakçılarına yüksək diqqət və qayğını özünün həyat amalı kimi qəbul edib.

Onun genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə tükənmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini dünyada böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Azərbaycan ictimaiyyətinin dərin rəğbətini qazanan, köməyə, yardıma ehtiyacı olanların hər zaman yanında olan Heydər Əliyev Fondu Ulu Öndərin amallarını rəhbər tutaraq ölkəmizin həyatı ilə bağlı ən mühüm layihələrə imza atmış və atmaqdadır. Bunların nəticəsidir ki, fond Ümummilli Liderin arzu və istəklərinin, onun ideyalarının həmişəyaşarlığını əks etdirən əsas mərkəzə çevrilib.

İşğaldan azad olunan torpaqlarımızda erməni terrorçuları tərəfindən darmadağın edilmiş dini-mədəni abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası Mehriban xanımın gündəlik diqqətdə saxladığı prioritet vəzifədir. Şuşa şəhərində Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi və Zəngilan şəhər məscidi, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi, Şuşada görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin açılışı, Şuşa şəhərindəki Xalçaçılıq Qalereyası, “Xarıbülbül” festivalı, Vaqif Poeziya Günləri və bu çərçivədə “Qarabağ Azərbaycan mədəniyyətinin incisidir”, “Yenidən doğma diyarda. Qarabağın sənət inciləri” və “Yaddaş. Fotoqrafik tarix” sərgiləri və qısa zaman çərçivəsində reallaşan layihələr birinci xanımın rəhbərliyində Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti yüksək töhfələridir.

Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyəti ilə ölkəmizin həyatında böyük xidmətlərə imza atıb, dövlətinə şərəflə xidmət edib, xalqının böyük rəğbət və sevgisi ilə ucalıb. Onun humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərindən irəli gələn əzmkar fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır. Bu ali məramın nəticəsi idi ki, Prezident cənab İlham Əliyevin Sərəncamı ilə 2017-ci il fevralın 21-də Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olundu. Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi cəmiyyətin sosial sifarişinə əsaslanan tarixi qərar kimi qarşılanmışdır. 2016-cı il 26 sentyabr tarixli ümumxalq referendumunun nəticəsi kimi təsis edilmiş bu vəzifəyə milyonların sevgisini qazanmış bir şəxsiyyətin təyin edilməsi haqlı olaraq Azərbaycanın dövlət idarəçiliyi sistemində keyfiyyətcə yeni və uğurlu mərhələnin başlanğıcı kimi dəyərləndirilmişdir. Yeni vəzifəsində cəmiyyətə ilk mesajlarını vermiş Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva demişdir: *“Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində birgə olmalıdır... Biz bu illər ərzində bir çox irimiqyaslı layihələr icra etmişik. Azərbaycanın ictimai və siyasi həyatında fəal iştirak edirik, infrastruktur layihələri icra edirik. Eyni zamanda biz heç zaman insanların problemlərinə biganə qalmamışıq. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir və hesab edirəm ki, bu, bütün dövlət qurumlarında çalışan insanların əsas borcudur və vəzifəsidir”.*

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qlobal bəşəri dəyərlər, sülh və tolerantlığın təbliğində, fərqli mədəniyyətlər və dinlər arasında dialoq və əməkdaşlıq formatının yaranmasındakı rolu da danılmazdır. Onun təşəbbüsü və dəstəyi ilə elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə həyata keçirilən irimiqyaslı humanitar layihələr, xeyriyyəçilik tədbirləri bir sıra ölkələri də əhatə edir, müxtəlif qitələrdə əks-səda doğurur. Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində silsilə humanitar aksiyalar bu sıradandır. Fondun Fransa, Almaniya, İtaliya və digər ölkələrin maddi-mədəni dəyəri sayılan tarixi abidələrin təmirində yaxından iştirakı da xüsusi əhəmiyyət kəsb edir. Humanizm, həmrəylik və dözümlülük dəyərlərinə sadiqlik nümayiş etdirən Heydər Əliyev Fondu Azərbaycanın dünyada tolerantlığın mərkəzinə çevrilməsində əvəzsiz rol oynayır. Fondun xətti ilə Versal sarayının bir hissəsi və Strasburqda orta əsrlərə aid kilsə, Luvr Muzeyi qalereyalarından biri, Roma katakombaları bərpa edilib, Berlin qəsrində, Kapitoli Muzeyində mühüm yenidənqurma işləri görülüb. Vatikan arxivlərində Azərbaycan orta əsrlər əlyazmalarının bərpası və onların rəqəmsallaşdırılması tədbirləri uğurla davam etdirilir. Fond Hollandiya, Gürcüstan, Misir, Rumıniya, Rusiya və digər ölkələrdə də məktəblərin tikintisi və bərpasında yaxından iştirak edir. Mehriban xanımın rəhbərliyində fond uzun illərdir ki, Azərbaycanın humanitar və mədəni diplomatiyasının səlahiyyətli nümayəndəsinə çevrilib.

Bunların nəticəsidir ki, Mehriban xanım haqqında “Washington Times” qəzeti belə yazır: *“Azərbaycanın birinci xanımı: Müsəlman qadınlar üçün nümunəvi qadın obrazıdır”.*

Bu gün tam əminliklə söyləmək olar ki, yüksək dövlət vəzifəsində fəaliyyət göstərən Mehriban xanım Prezidentin də, ona inanan, ümid bəsləyən insanların da etimadını layiqincə doğruldub. Gündəlik fəaliyyətində insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq meyarlarını əsas götürür, fəaliyyətini məhz bu prinsiplər üzərində qurur, milli-mənəvi dəyərləri daim uca tutur.

Mehriban xanımın hər bir vətəndaşımızın yüksəlişinə xidmət edən qlobal layihələri Heydər Əliyev ideyalarına sədaqətin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstəyin real nümunələridir. Bütün sahələrdəki fəaliyyətini uğurla davam etdirən Mehriban xanım Ulu Öndər Heydər Əliyevin ölməz ideyalarına söykənərək milli tərəqqi və intibah prosesinə hər gün öz layiqli töhfələrini verməkdədir.

Deyilənlərin və bütün bu keyfiyyətlərin cəmini xarakterizə edən əsas cəhət isə, əlbəttə ki, Mehriban xanım Əliyevanın müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında əzmlə çalışması, sadiqliyi, Prezident cənab İlham Əliyevin ictimai dəstəkçisi və ən yaxın silahdaşı olmasıdır.

Bir sözlə, Azərbaycan Birinci vitse-prezidentinin ötən 7 ildə göstərdiyi uğurlu fəaliyyət, gördüyü işlər, ömür yolu, sözün tam mənasında, Vətənə xidmət nümunəsidir. Mehriban xanımın vaxtilə dediyi: *“Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam”* sözləri bu gün real nəticələrlə öz təsdiqini tapıb.

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru***

# Hərəmiz bir budağı, hərəmiz bir gövdəsi olaq bu "Qoca Çinar"ın

Xalq şairi Nəbi Xəzrinin sözlərinə yazılan və ölməz sənətkarımız Şövkət Ələkbərovanın ifasında eşitdiyimiz "Dərələr" mahnısındakı "Əgər ki, yıxılsam, çinar göstərin" sözləri bu gün hər birimizin qəlbindəki sarı simə toxunur. Toxumları düşdüyü yerdə cücərən, müdriklik və güc simvolu olan çinar ağacına baxanda qeyri-ixtiyari olaraq Xalq şairi Rəsul Rzanın məşhur "Çinar" şeirini də xatırlamamaq mümkün olmur.

Qədim türk inanclarına görə, ulu babamız Oğuz xan Çinar ağacına üz tutaraq deyib: "Hər oğuz boyu diriliş çinarının bir budağı, hər nəsil bu çinarın gövdəsi olacaq". Oğuz boyları ona görə çinara bənzədilib ki, onlar da çinar kimi köklü, uzunömürlü və böyük gücə malik olub. Necə ki çinar yarpaqları müxtəlif Oğuz boylarına bənzədilib, Osmanlı imperiyası da müxtəlif mədəniyyətlər və millətlərdən ibarət olub. Bu səbəbdən də Osmanlı imperatorluğu qurulduğu gündən çinar simvolu imperatorluğun gücünü və uzunömürlüyünü təmsil edib. Məhz bu səbəbə görə imperiya çox vaxt "Çinar Dövləti" adlandırılırdı.



***Ədalətli idarəetmə və müdriklik simvolu: çinar***

Qədim yunan mifologiyasında da Zevs və Heranın xoşbəxtliyi simvolizə etmək üçün çinar əkdiyi deyilir. Tarixin bütün dönəmində bu ağac ədalətli idarətmə və müdriklik simvolu kimi istifadə olunub. Çinar ölməzlik, davamlılıq, əbədilik və müdriklik rəmzi olduğu üçün güc simvolu hesab edilir. Bu ağac Kaynazoy erasının üçüncü dövr relikt florasının yadigarı sayılır. Mezozoyun təbaşir dövrünün süxurlarında bu ağacların qalıqları tapılıb. Çinar çiçəkli bitkilərin ən qədim növlərindən biridir. Gözəlliyinə, görkəminə və nadir bioekoloji əlamətlərinə görə onu Şərqin, ağac florasının mirvarisi, möhtəşəm gövdəsi, əzəmətli, yaraşıqlı çətirinə görə isə Cənubun nəhəng ağacı adlandırırlar. Geniş və sıx çətirli olmaqla qışda yarpaqlarını tökür. Gövdəsi möhkəm olan Çinarın boyu 40-50 metrə, gövdəsinin çevrəsi 18 metrə çatır. Yarpaqları növbəli düzülüşlü, barmaqvari dilimlidir, uzun saplaqlıdır. Külək vasitəsilə uzaqlara sovruluraq toxumları düşdüyü yerdə daha da bərkiyir. 150-200 yaşında ömrünün ən məhsuldar dövrünü yaşayır. Yaşama müddəti 2000-2300 ilə qədərdir. Kiçik Qafqaz dağlarının cənub-şərq yamaclarında çinar ağaclarının təbii və yabanı yolla cücərib artması meşəçilik və nəbatat elmləri üçün böyük əhəmiyyətə malikdir. Çinar tezböyüyən ağacdır. Qələm vasitəsilə çoxaldılır və ömrü boyu pöhrə verir. Ağaclar qocalaraq yıxıldıqda bu pöhrələr böyüyərək ana ağacı əvəz edir.

Çinarın insana və təbiətə çox faydası var. Çinar havanı təmizləyir, qocalığı, gücü və davamlılığı özündə ehtiva edir, o həm də ölümsüzlük simvolu hesab olunur. Çinar mülayim iqlimdə bitir və soyuğadavamlıdır, şaxtadan təsirlənmir. Çinarın böyümə dövrü, təxminən, 50-60 ildir. Araşdırmalara görə, bir çinar ildə orta hesabla 130 kiloqram oksigen istehsal edir. Ümumiyyətlə, çinarlar ətraf mühitə və insanlara faydaları ilə tanınır. Enli gövdəsi ilə hündür ağaclardan olan çinar, parlaq yarpaqları ilə çox nümayişkaranə görsənir. Kiçik bir toxumla əkilən çinar böyüdükcə son dərəcə əzəmətli ağaca çevrilir.

Tanınmış təbiətşünas alim, akademik Həsən Əliyevin təşəbbüsü ilə nadir təbiət abidəsi olan çinar meşəsini qorumaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 4 iyul 1974-cü il tarixli Qərarı ilə Zəngilan rayonu ərazisində 117 hektar sahəni əhatə edən Bəsitçay Dövlət Təbiət Qoruğu yaradılıb. Respublikamızda yayılan çinar növü Şərq çinarı və ya barmaqyarpaqlı çinar adlanır. Bəzi mənbələrdə Bəsitçay vadisindəki çinar meşəsinin Avropada birinci, dünyada ikinci olduğu göstərilir. Dünyada ən böyük çinar meşəsinin Şimali Amerikada – Kanada ərazisində olduğu söylənir.

Azərbaycanın hər yerində təbiət abidəsi olaraq çinarlar qorunur. Relikt bitki olan Şərq çinarı keçmiş SSRİ-nin "Qırmızı kitab"ına daxil edilib. Azərbaycan Respublikasının Zəngilan rayonu ərazisində yayılmış yabanı Şərq çinarı meşəsi dünyanın ən böyük meşə massividir. Bu meşə massivi sahəsinin böyüklüyünə görə dünyada birincidir.

Azərbaycanın Zəngilan rayonunda, Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada birinci meşədir. Cənubun nəhəng ağacı adlanan Zəngilan çinarı dünyada bitən 8 çinar növündəndir.

Azərbaycan Xalq Cümhuriyyəti zamanında sahəsi 120 hektara yaxın olan Zəngilan çinar meşəsi bütünlüklə Azərbaycana məxsus olub. Azərbaycanda sovet hakimiyyətinin elə ilk illərində Zəngəzur torpaqlarının Ermənistana verilməsi ilə ermənilər keçmiş sovet himayədarlarının əli ilə çinar meşəsinin də bir hissəsini işğal etmişdilər. XX əsrin 90-cı illərində Ermənistanın təcavüzü nəticəsində digər tarixi və mədəni abidələrimiz kimi Zəngilan çinar meşəsi də düşmən tərəfindən vəhşicəsinə talan edilib, ötən 30 il ərzində isə həmin meşələr qırılaraq satılıb.

***Çinar ətrafında çəkilən şəklin ilk təəssüratı***

Xatırlayırsınızsa, Prezident cənab İlham Əliyev ötən il işğaldan azad olunmuş Cəbrayıl və Zəngilan rayonlarında səfərdə olarkən rayonun sakinləri və ailəsi ilə birgə səmimi şəkillər çəkdirirdi. Lakin düşünməyin ki, Prezident cənab İlham Əliyevin səmimi görüntüləri ancaq xatirə üçün idi. Xeyr, səmimi şəkillərdə, videokadrlarda siyasi mesaj, məqsədyönlü strategiya, "donuzun sahibi"nə ünvanlanmış xəbərdarlıq mesajı var idi. Prezident ailəsi ilə birlikdə yaşı 100-200 il olan çinar ağacının ətrafında şəkil çəkdirməklə Ermənistan ictimaiyyətinə deyəcəyi sözləri bu kadrlar vasitəsilə ötürmüşdü. Bu mesajdan sonra Ermənistan mediası dünyaya car çəkdi ki, Prezident İlham Əliyev guya onlara məxsus ərazilərə gəlib. Onları qınamırıq. Çünki bir zamanlar Cıdır düzündə melodram hisslərlə yallı gedərkən həqiqəti görməkdə aciz idilər. Bəlkə də, düşünürlər ki, bir vaxtlar biz oralarda idik, amma indi nəinki Zəngilanın, hətta bütün Zəngəzur ərazisindəki çinar meşələrinin əsl sahibləri gəliblər. Çox çəkməz bu meşələrin, ağacların sahibləri erməniləri həmin çinar ağaclarını məhv etdiklərinə, kəsib satdıqlarına görə ibrəti-aləm olsun deyə cəzalandırar. Bəlkə də, budur qədim çinar ətrafında çəkilən şəklin ilk təəssüratı…

***Xocavənddə ziyarət olunan çinardan Qərbi Azərbaycana ümid mesajı***

Qeyd edək ki, Qırmızı Bazar qəsəbə inzibati ərazisi dairəsinə daxil olan Şıx Dursun kəndi 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizləndi. Təmizləmə prosesindən sonra Azərbaycan Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd rayonunun Şıx Dursun kəndində olarkən "Çinar müqəddəs yer" abidə kompleksinə baxış keçirdilər. 2500 ilə qədər yaşı olduğu təxmin edilən çinar nəinki Azərbaycanın, dünyanın ən yaşlı ağaclarından biri sayılır. Ağacın hündürlüyü 54 metr, gövdəsinin diametri 27 metrdir. Ağacın yaxınlığında onu su ilə təmin edən Tenqri bulağı yerləşir. "Tenqri" sözü "Tanrı" sözünün qədim türk dilindəki deyiliş şəklidir. Qədim türklərin mifik təsəvvürlərinə görə, həyat ağacının kökündən dirilik suyu axır və ağacın yiyəsi, yəni əyəsi olan Ağ Ana, həm də həmin suyun sahibidir. Altaylıların inanclarına görə, yerin, dağın, meşənin, çayın, suyun da öz ruhları var.

Tarixboyu ədalətə dayanıqlı hakimiyyət quran türklər əsrlər boyu Orta Asiya, Yaxın Şərq, Orta Avropa və bütün Şimali Afrikada hökmranlıq edərək Atabəylər, Səlcuqlar, Osmanlılar, Səfəvilər kimi tarixin danılmaz dövlət və imperatorluqlarını qurdular. Bu heyrətamiz tablo göstərir ki, türklər hər zaman böyük bir mədəniyyətə sahib olub. Tanrının bütün Kainata hakimliyini qəbul edən türklər təkcə özlərinin deyil, hakim olduqları bütün məmləkət, xalq və dinlərin hamisi kimi çıxış etməyi özlərinə borc bilərək hakim olduqları minilliklər ərzində əmanətə sahib çıxıblar.

Nə bilmək olar, Xocavənddə ziyarət olunan çinarın toxumlarını küləklər Dəmir qapı Dərbəndə, ana Təbrizə, ən əsası da Qərbi Azərbaycana sovuraraq torpağın qoynuna səpməyib? Eynilə Müzəffər Ali Baş Komandanın dediyi kimi: ***"Əlbəttə ki, biz əcdadlarımızın yolu ilə getməliyik. Onların ruhlarını həmişə şad etməyə çalışmalıyıq. Azərbaycan xalqının üstünlüyü ondadır ki, biz öz qədim ənənələrimizə sadiqik. Bu nöqteyi-nəzərdən hər birimiz üçün onun ailəsi, onun ulu babaları, əcdadları böyük əhəmiyyət kəsb edir, o cümlədən mənim üçün. Orada babamın məzarı önündə ürəyimdə dediyim sözləri ola bilsin ki, nə vaxtsa dilə gətirəcəyəm".***

**Fariz ƏHMƏDOV**



# MEHRİBAN ƏLİYEVA:

**“Ölkəyə və insanlara xidmət edirəmsə, yardıma ehtiyacı olanlara kömək etməyi bacarıramsa – bu mənim üçün ən yüksək mükafatdır.”**



Azərbaycan qadını! Bu müqəddəs varlıq öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, yüksək mənəvi keyfiyyətləri ilə hər zaman xalqımızın adını uca tutub. Tarixi minilliklərə söykənən ailə dəyərlərimizin formalaşmasında və inkişafında onların çox böyük rolu olub və bu şərəfli missiyanı bu gün də uğurla yerinə yetirirlər. O da qürurvericidir ki, Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Ona görə də bu zərif cinsin nümayəndələrinin bir çoxunun adı tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb və bugünkü gənc xanımlarımız üçün bir örnəyə çevriliblər. Onlar damarlarında Sara xatının, Tomrisin qanını daşıyırlar.

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da Azərbaycan qadınına xas olan bütün keyfiyyətləri özündə təcəssüm etdirməklə həm ictimai xadim, həm də ana kimi bütün qadınlarımıza cəmiyyətin həyatında layiqli yer tutmaq nümunəsini göstərir. Humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali mənəvi keyfiyyətlər onun şəxsiyyətində özünün daha yüksək ifadəsini tapıb. Ölkəmizin birinci xanımının ictimai-siyasi fəaliyyəti milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha da möhkəmləndirilməsinə yönəldilib.

2004-cü ildən xalqımızın zəngin mənəvi irsini, Azərbaycançılıq fəlsəfəsini yaşatmaq, dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq kimi vəzifələri yerinə yetirmək məqsədilə yaradılan və dövlətimizin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin adını daşıyan fond ötən 20 ildə həyatımızın ayrı-ayrı sahələrinin fəaliyyətini inkişaf etdirmək üçün müxtəlif layihələr reallaşdırıb. Bu gün hər bir azərbaycanlının daha uğurlu sabahlara inamını, böyük sevgi və ehtiramını qazanan fond Ulu Öndərin adını şərəflə daşımaqla dahi rəhbərin xatirəsini yaşatmaq, cəmiyyətimizin, doğma Azərbaycanımızın daha sürətli inkişafı naminə layiqli fəaliyyət göstərməyi özünün prioritet vəzifəsinə çevirib. Fondun rəhbəri Mehriban xanım Əliyevanın dediyi kimi: *“Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas Müəllimdir”.*

Fondun həyata keçirdiyi məqsədyönlü tədbirlərin nəticəsi göz önündədir və hər birimizə qürur hissi yaşadır. Bu, yüzlərlə yeni inşa olunan məktəb, müasirləşən uşaq bağçaları, məktəbdənkənar təhsil müəssisələridir; yeni tikilən tibb müəssisələri, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlar üçün xüsusi tibb və reabilitasiya mərkəzləridir; bərpa olunan tarixi və dini abidələr, eyni zamanda yeni qurulan mədəniyyət ocaqları, muzeylərdir. Bu, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq istiqamətində həyata keçirilən tədbirləri özündə əks etdirməklə işıq üzü görən yüzlərlə kitablar, foto və videoalbomlar, zəngin mədəni və tarixi irsimizin təbliğinə yönələn beynəlxalq simpoziumlar, festivallar, elmi konfranslardır. Bu sırada fondun səmərəli xeyriyyəçilik tədbirləri həyata keçirməsi xüsusi vurğulanmalıdır. Belə tədbirlər nəticəsində yüzlərlə insan sağlam həyata qayıdıb, bəzi vətəndaşlarımızın üzləşdikləri problemlər aradan qaldırılıb, imkansız, aztəminatlı ailələr qayğı ilə əhatə olunublar.

Mehriban xanım Əliyeva müsahibələrinin birində rəhbərlik etdiyi fondun fəaliyyətinin məqsəd və istiqamətlərini belə açıqlamışdı: *“Fəaliyyətimizin çoxşaxəli olmasına baxmayaraq, prioritet istiqamətləri müəyyən etdik və daha çox diqqət tələb edən problemlərin həllində yaxından iştirak etməyə çalışdıq. Sözsüz ki, ilk növbədə, cəmiyyətimizin daha çox qayğıya ehtiyacı olan təbəqələrinə – valideyn himayəsindən məhrum olmuş uşaqlara, qaçqın və məcburi köçkünlərə, qocalara və müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlara yönəlmiş layihə və proqramların icrasına başladıq”.*



İnsan və onun layiq olduğu səviyyədə yaşaması prinsipi fondun fəaliyyətinin əsas hissəsidir. Bunun ifadəsidir ki, Mehriban xanım ötən illər ərzində elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji və məşğulluq sahələrində çalışan neçə-neçə istedadlı gəncin müxtəlif layihələrə cəlb edilməsi ilə onların gələcək həyat yollarını müəyyənləşdirib. Valideyn qayğısından və himayəsindən məhrum olmuş nə qədər körpəyə yiyə durmaqla, onların taleyinə həssaslıqla yanaşmaqla, bu və ya digər xəstəlikdən əziyyət çəkən nə qədər uşağın xilası naminə mümkün olan hər şeyi etməklə hamının sevgisini qazanan Mehriban xanım deyir: *“Bu, yüz mindən çox şagirdin təhsil şəraitinin yaxşılaşmasına xidmət edən yüzlərlə yeni məktəb binasının istifadəyə verilməsi, valideyn himayəsindən məhrum olmuş uşaqlara diqqət və qayğı göstərilməsi, müasir avadanlıqla təchiz edilmiş yeni tibb mərkəzlərinin inşası, gənc istedadların dəstəklənməsi, tarixi abidələrin bərpası, qədim mədəniyyət və incəsənətimizin təbliği və nəhayət, Azərbaycanın əsrlər boyu formalaşmış tolerantlıq ənənələrinin qorunub saxlanıldığı dünyəvi bir ölkə kimi dünyaya tanıdılmasıdır”.*

***“Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”***, – deyən Ulu Öndərin adını daşıyan fondun çoxsaylı məqsədlərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması, gələcək nəslə ötürülməsi, gənclərə bu dəyərlərin milli pasportumuz olmasının aşılanması, onlara ehtiramla yanaşılması və Azərbaycan mədəniyyətinin dünyada geniş təbliği ilə bağlıdır. Belə ki, 20 il ərzində fond tərəfindən milli musiqimizin incilərindən olan muğamın inkişafı və təbliği ilə bağlı məqsədyönlü addımlar atılıb, “Qarabağ xanəndələri” musiqi albomu nəfis şəkildə nəşr edilib. Tanınmış ifaçıların, gənc xanəndələrin iştirakı ilə muğam axşamları, müsabiqələr sənətsevərlər, milli musiqi həvəskarları tərəfindən dərin razılıq hissi ilə qarşılanıb, bu işlər yüksək dəyərləndirilib. Azərbaycan muğamı bununla da ölkə hüdudlarını aşaraq xarici ölkələrdə də özünə geniş auditoriya toplaya bilib. Məhz fondun təşkilatçılığı və iştirakı ilə reallaşan layihələr sayəsində milli, tarixi-mədəni irsimizin Azərbaycana məxsusluğu dünya ictimaiyyəti tərəfindən də təsdiqlənib. İçərişəhər, Qobustan Tarix-Mədəniyyət Qoruğunun, xalça, saz, tar və muğam sənətlərinin, Novruz bayramının, “Çövkən” atüstü oyununun, Azərbaycan kəlağayısının UNESCO-nun mədəni irs siyahısına daxil edilməsi fondun səmərəli fəaliyyəti nəticəsində mümkün olub. Həmçinin Naxçıvanın incisi sayılan “Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri” UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilib. Bununla da Şərur yallılarının beynəlxalq müstəvidə tanıdılmasına və təbliğinə şərait yaranıb. Buna Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yüksək dəyər verib: ***“Heydər Əliyev Fondunun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır”.***

Görülən işlər isə bir daha onu göstərir ki, Mehriban xanımın rəhbərlik etdiyi fondun fəaliyyəti artıq müasir Azərbaycan tarixinin bir hissəsidir. Bu baxımdan fondun insanların rifahı naminə bir sıra humanitar proqramların reallaşdırılmasını qeyd etməmək olmaz. Bununla da birinci xanım cəmiyyətdə xeyriyyəçilik və mesenatlıq ənənələrinin daşıyıcısına, qoruyucusuna çevrilib, ona olan xalq sevgisi bir qədər də artıb. Türkiyə Respublikasının 9-cu Prezidenti, mərhum Süleyman Dəmirəl fond haqqında deyirdi: *“Bu fond, sadəcə, böyük bir şəxsiyyətin adının əbədiləşdirilməsi naminə yaradılmış xatirə təşkilatı deyil. Bu, bir sosial qurumdur və bu sosial qurumun fəaliyyəti başqa ölkələri də əhatə edir. İdeoloji qurum deyil. Bir humanitar qurumdur. Təhsilin inkişafı, yoxsulluğun aradan qaldırılması üçün çalışan bir təşkilatdır”.*

Birinci xanımın *“Xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq ənənələri davam etdirməyə çalışırıq”*, – sözləri xeyriyyəçiliyin fondun kredosuna çevrildiyini bir daha təsdiqləyir.

Onu da vurğulamaq lazımdır ki, fondun fəaliyyəti təkcə ölkəmizi əhatə etmir, sərhədlərimizi aşaraq xarici ölkələrdə də xeyriyyəçilik tədbirləri həyata keçirir. Bunun ifadəsidir ki, bütün bəşəriyyətə məxsus olan tarixi və mədəni abidələrin bərpası da fond rəhbərinin qarşıya qoyduğu vəzifələr sırasında özünə yer alıb. Belə ki, adıçəkilən qurumun Luvrda İslam incəsənəti şöbəsinin, Berlin qəsrinin, Romada Kapitoli Muzeyindəki “Filosoflar zalı”nın və digər belə obyektlərin bərpasında fəal iştirakı bütün dünyada məmnunluq hissi ilə qarşılanıb. Dünyanın müxtəlif ölkələrində Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının, eləcə də xarici ölkələrlə diplomatik münasibətlərin qurulması münasibətilə tədbirlər, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı, Avropa Parlamentinin və UNESCO-nun mənzil-qərargahlarında, BMT-nin Cenevrədəki mənzil-qərargahında silsilə tədbirlərin reallaşdırılması ölkəmizin mövqeyinin daha da möhkəmləndirilməsinə və beynəlxalq arenada Azərbaycanın imicinin yüksəldilməsinə xidmət edir. Bu gün vətənsevər hər bir azərbaycanlı sevinir ki, Azərbaycanın birinci xanımının bilavasitə təşəbbüsləri ilə dünyanın bir sıra ölkələrində çoxsaylı mədəni layihələr, xeyriyyəçilik aksiyaları uğurlu nəticələr vermişdir.

# Nəcib amallar naminə

## Prezident İLHAM ƏLİYEV:

**“Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır.”**





1999-2009-cu illərdə UNESCO-nun baş direktoru olmuş Koişiro Matsuura Azərbaycanın birinci xanımı haqqında yüksək fikirlər söyləmişdir: *“Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin qorunmasına və təbliğinə çalışmaqla təkcə öz xalqına xidmət etmir, eyni zamanda UNESCO-nun qarşıya qoyduğu vəzifələri icra edir. Bu vəzifələr isə, ümumiyyətlə, bəşəriyyətə xidmət etməkdən ibarətdir. Xanım Əliyevanın fəaliyyəti təqdir olunmalıdır”.* Bir çox mükafatlarla təltif olunması – Azərbaycanın ən ali dövlət mükafatı olan “Heydər Əliyev” ordeninə, həmçinin bir sıra dövlətlərin və təşkilatların nüfuzlu təltiflərinə layiq görülməsi Mehriban xanım Əliyevanın həyata keçirdiyi çoxşaxəli fəaliyyətinin bir hissəsi olmaqla onun gördüyü işlərə verilən dəyərdir.

Sözün əsl mənasında, insanların inam yeri kimi nəcib bir missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasız həyata keçirən birinci xanım həm də sədaqətli həyat yoldaşı, qayğıkeş ana və nənədir. Onun *“Ailə mənim üçün, düşünürəm ki, elə hər kəs üçün istənilən şəraitdə həyatın əsas mənası və stimulu, istinad nöqtəsi və güc mənbəyidir”* sözləri fond prezidentinin ailəyə verdiyi böyük qiymətin göstəricisidir və köməklik etdiyi hər bir ailə də bu yanaşmadan qaynaqlanır.

Tarixi Zəfərimizdən ötən dövrdə Heydər Əliyev Fondu yeni layihələrlə çıxış edir, tarixi Qələbəmizin ictimai, mənəvi-siyasi və diplomatik müstəvidə möhkəmləndirilməsi ilə əlaqədar zəruri işlərlə fəaliyyət istiqamətlərini daha da genişləndirib. Bu baxımdan Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad olunmasından sonra “Xarıbülbül” festivalının, Vaqif Poeziya Günlərinin yenidən keçirilməsi də milli sərvətimiz olan mədəni irsimizin təbliğinə yönələn faydalı təşəbbüslərin reallaşdırılması xüsusi qeyd olunmalıdır.

Ölkəmizin ərazi bütövlüyü, dövlətçiliyimizin, müstəqilliyimizin qorunması uğrunda şəhid olmuş igid Azərbaycan övladlarının xatirəsinin əbədiləşdirilməsi ilə bərabər, onların ailələrinin, eləcə də qazilərin sosial müdafiəsinin gücləndirilməsi üçün aparılan ardıcıl işlər Prezident cənab İlham Əliyevin və Mehriban xanım Əliyevanın şəhidlərimizin ruhuna sonsuz ehtiram hissindən, şəhid ailələrinə, sağlamlığını itirmiş qazilərə böyük qayğısından irəli gəlir. Ölkə Prezidenti, həmçinin Mehriban xanım Əliyeva mütəmadi olaraq bu kateqoriyadan olan insanlarla görüşür, onları dinləyir, qarşılaşdıqları çətinliklərin aradan qaldırılması üçün qayğılarını əsirgəmirlər.



*“Gərəkli və faydalı olmaq, insanların sənə inanması və səni dəstəkləməsi xoşbəxtlikdir. Xoşbəxtlik vicdan və niyyətin təmiz olması, sevgi və xeyirxahlığın həyatın əsas qayəsinə çevrilməsidir”.* Mehriban Əliyevanın bu sözləri bir daha təsdiqləyir ki, amalı xeyirxahlıq və kömək etmək olan birinci xanımın çoxşaxəli fəaliyyəti bundan sonra da cəmiyyət həyatında müsbət dəyişikliklərin baş verməsinə istiqamətlənəcək. Özünün də dediyi kimi: *“İllər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız – Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır”.*



Xalqın düşüncəsində qoşa addımlamaq əqidə birliyi, həmrəylik ifadəsi sayılır. Azərbaycan vətəndaşları Prezident cənab İlham Əliyevin və Onun ən yaxın silahdaşı və köməkçisi olan Mehriban Əliyevanın qoşa addımlarını firavan gələcəyimizin, əmin-amanlığın və növbəti uğurlarımızın əlaməti olaraq yüksək qiymətləndirir. Mehriban xanımın həyat amalı, tarixi missiyası Ulu Öndər Heydər Əliyevin qurduğu, Prezident cənab İlham Əliyevin uğurla bugünkü yüksəkliklərə ucaltdığı müstəqil Azərbaycanın xoşbəxt gələcəyi naminə xidmətlər göstərməkdən ibarətdir. Mehriban xanım Əliyevanın dediyi kimi: *“Ölkəyə və insanlara xidmət edirəmsə, yardıma ehtiyacı olanlara kömək etməyi bacarıramsa – bu mənim üçün ən yüksək mükafatdır”.*



**Məhəbbət MİRZƏYEVA**





Prezident İlham Əliyevin Heydər Əliyev Muzeyinin xatirə kitabına yazdığı ürək sözləri


İlham Heydər oğlu Əliyev
Azərbaycan Respublikasının Prezidenti

# Ümummilli Liderin milli qurtuluş və müstəqillik arzularını özündə yaşadan muzey





Qarşısında dayanmışam Naxçıvana gələn dünyanın aparıcı ölkələrinin rəsmi şəxslərinin, beynəlxalq nümayəndələrin, turistlərin ilk üz tutduğu ünvanın. Bura 100 yaşlı muxtariyyətin 25 illik dəyərli dövlətçilik mənbəsi, mədəniyyət ocağı Heydər Əliyev Muzeyidir. 25 yaşını muxtar respublika statusu ilə qeyd edən muzey. Daxil oluram dahi şəxsiyyətin adını qürurla, fəxrlə daşıyan mədəniyyət müəssisəsinə. Ekspozisiyanın ayrı-ayrı guşələrində, stendlərdə sərgilənən bir-birindən dəyərli, qiymətli eksponatların ziyasında vərəqlənir qayəsi vətənpərvərlik, Vətənə, xalqa, dövlətçiliyə xidmət olan müdrikliklə zəngin ömrün səhifələri. Əvvəllər heç bir yerdə rastıma çıxmayan, yalnız burada gördüyüm tarixi fotolar, sənədlər, şəxsi, xatirə əşyaları, 1990-1993-cü illərdə dövlətçiliyimizin bərpası istiqamətində qəbul olunan tarixi qərarların mətbu işığına çevrilən "Şərq qapısı" qəzetinin nömrələri...

### *Şərqin qapısında mütərəqqi addımlar, dövrün salnaməsi – "Şərq qapısı"*

1999-cu il mayın 10-da 420 eksponatla fəaliyyətə başlayan, bu gün fondunda 5444 eksponatı qoruyub saxlayan muzeyin ekskursiyasına çıxıram. Gözlərim önündə əbədiyaşar liderin dəyərli həyat yolundan, siyasi fəaliyyətindən, mütərəqqi ideyalarının gerçəkləşməsindən, "Müasir, qüdrətli Azərbaycan" adlı şah əsəri yaratmasından bəhs edən tarixi faktlara söykənən sənədli film canlanır. Ölkəmizə ikinci rəhbərliyi dövründə regionlara səfəri zamanı zəhmətkeşlərlə görüşünü əks etdirən fotolar dahi şəxsiyyətin sadə, səmimi, insani keyfiyyətlərindən danışır. Ümummilli Liderin həyatının, siyasi fəaliyyətinin Naxçıvan dövründən bəhs edir eksponatlar. Ümummilli Liderin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri seçilməsi barədə mühüm qərarlar, hadisələri geniş oxucu kütləsinə çatdıran "Şərq qapısı" qəzetinin nömrələri görkəmli dövlət xadiminin uzaqgörənliyindən, fenomenliyindən, dövlətin, millətin gələcəyini öz canından üstün tutmasından dolğun şəkildə söhbət açır mənə. Diqqətimə hakim kəsilir həmin dövrdə cəsarət rəmzinə, dəyərli salnaməyə çevrilən mətbuat orqanı. Düşünürəm: Ulu Öndərin 1991-1993-cü illərdə Ali Məclisin Sədri işlədiyi müddətdə insanların rifahı, dövlətin qüdrətlənməsi, iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı naminə həyata keçirdiyi qabaqcıl, misilsiz işləri necə də müfəssəl şəkildə çatdırır oxucularına. Ölkəmizin ərazi bütövlüyü uğrunda övladları əsir düşmüş, girov götürülmüş valideynlərin Ümummilli Liderə ünvanladığı məktublar, teleqramlar çıxır qarşıma. Sakinlərin Vətəninə, xalqına könüldən bağlanan vətənpərvər, fenomen şəxsə olan inamının, ümidinin böyüklüyündən, sonsuzluğundan xəbər verir bu tarixi məqamlar. Divardan asılan, rəssamı Şahəddin Mahmudov olan "Yüksəlişə doğru həyat yolu" adlanan xalçanın seyrindəyəm. Anası İzzət xanımın da əks olunduğu, Ulu Öndərin gəncliyindən prezidentliyədək keçdiyi həyat yolu ilmələrin sehrində öz ecazkarlığı ilə heyran edir məni.

### *Gəncliyə örnək tələbəlik illəri, əmək fəaliyyəti*

Stendlərdə dahi şəxsiyyətin 1936-1939-cu illərdə Naxçıvanda Pedaqoji Texnikumda təhsil aldığı illərə aid attestat, 1938-ci ildə müvəffəqiyyətə və nümunəvi əxlaqına görə verilən tərifnamə, 1951-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə qəbul olarkən təqdim etdiyi qiymət cədvəli, həmin ali təhsil ocağını bitirməsinə dair diplomu görürəm. 1949-1950-ci illərdə Leninqradda (indiki Sankt-Peterburq şəhərində) Dövlət Təhlükəsizlik Komitəsinin xüsusi məktəbini bitirməsi haqqında şəhadətnamə, məktəbdən verilən xidməti xasiyyətnamə, müxtəlif fotolar Ulu Öndərin 1944-cü ilin mayından 1969-cu ilin iyulun 14-nə qədər dövlət təhlükəsizliyi orqanlarındakı xidməti dövrünə səyahət etdirir məni. SSRİ kimi dünya miqyaslı, nəhəng dövlətdə azərbaycanlı olaraq tutduğu yüksək mövqedən, leytenantdan general-mayor rütbəsinədək keçdiyi çətin, məsuliyyətli, şərəfli yoldan danışır.

### *Xalqa, dövlətçiliyə xidmət, mədəniyyətə, ədəbiyyata bağlılıq nümunəsi*

Muzeyin bir-birindən bənzərsiz guşələrində sərgilənən sənədlər, fotolar, eksponatlar məni getdikcə daha dərin düşüncələrə qərq edir, dahi öndərin nəsillərə örnək, nümunə sayılan həyat yolu, mütərəqqi ideyalarla zəngin siyasi fəaliyyəti



barədə təəssüratlarım daha da müfəssəlləşir. Əbədiyaşar liderin çoxşaxəli həyat yolunun, siyasi fəaliyyətinin dərinliyinə vardıqca söylədiyi ***"Mənim üçün öz həyatımdan, öz canımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir"*** kəlamının reallığı daha bariz şəkildə əks olunur yaddaşımda. Ekspozisiyanın digər bir bölməsi yenidən sovetlər dövrünə aparır məni. Ümummilli Liderin 36 orden və medalla təltif olunduğunu, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldüyü üçün sağlığında doğulduğu Naxçıvan şəhərində bürünc büstü qoyulduğunu öyrənirəm. Müstəqillik illərinə qayıdıram. Əbədiyaşar insanın bu dövrdə Naxçıvan Dövlət, Bakı Dövlət, Türkiyənin Hacəttəpə universitetləri də olmaqla, ümumilikdə, 25 universitetin fəxri doktoru adına layiq görüldüyü barədə məlumatlarla tanış oluram. Ekspozisiyanın ayrı-ayrı guşələrində nümayiş olunan kürsülük, qələmdan, xidməti telefon, stolüstü, sütunlu saatlar, çıraq, kostyum, palto, şlyapa, iş otağının fotoları Ümummilli Liderin Naxçıvanda Ali Məclisin Sədri kimi çalışdığı dövrün əyani güzgüsü olmaqla dahi şəxsiyyətin xalqın xoşbəxt gələcəyi, aydın sabahları naminə keçirdiyi yuxusuz gecələri, çəkdiyi əziyyətləri gözlər önünə sərir.

Önündəyəm müəllifi professor Kamil Əliyev olan, ümumilikdə, üzərinə 1 milyon 500 mindən artıq ilmənin vurulduğu xalçanın. Tamaşa edirəm sənətkar Akif Həsənov tərəfindən bütöv formada cəviz ağacından yonulan dekorativ-bədii nümunəyə də. Bu sənət əsərləri, eləcə də həyatının ayrı-ayrı dönəmlərində ailə üzvləri ilə birgə çəkilən rəsmlər, hazırlanan yaradıcılıq nümunələri dahi şəxsiyyətə, ailəsinə sonsuz sevgi, qürur, fəxr, minnətdarlıq hisslərini ifadə edir. Texnikumda oxuduğu müddətdə məktəb tamaşalarının birində Səməd Vurğunun "Vaqif" dramındakı Vaqif rolunda çıxışı zamanı çəkilən foto, 1942-ci il aprelin 27-də çəkdiyi rəsm əsəri bu dahi insanın yaradıcı dünyasından, kiçik yaşdan incəsənətə məhəbbətindən xəbər verir.

Muzeyin kitabxanasındayam, 589 adda 1257-dən çox siyasi ədəbiyyatın yer aldığı kitabxanada. Burada qorunub saxlanılan "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir", "İlham Əliyev. İnkişaf məqsədimizdir" çoxcildlikləri və digər kitablar görkəmli dövlət xadiminin Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi Naxçıvan Muxtar Respublikasının inkişafı, qüdrətlənməsi üçün gördüyü qabaqcıl işlərdən, həyata keçirdiyi layihələrdən, konsepsiyalardan tam mahiyyətilə dolğun şəkildə bəhs edir. "Mənim anam", "Heydər Əliyev. Şəxsiyyət və zaman" kitablarında, albomlarda yer alan ailə üzləri, övladları, nəvələri ilə çəkilən səmimi fotolar bu müdrik ömrün mənalı həyat yollarına aparır hər kəsi, nümunə, örnək aşılayır ailələrə, gənc nəslə...

Hər bir azərbaycanlı üçün hörmət, ehtiram ocağı sayılan, nadir eksponatlarla zəngin muzeyə ekskursiyam bitir. Ekspozisiya zalının tən ortasında Ümummilli Lider Heydər Əliyevin ömrünün, həyatının əsas amalına, ideya qaynağına çevrilən ***"Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır"*** dəyərli kəlamını oxuyaraq ömrünün 25-ci baharını yaşayan mədəniyyət ocağından ayrılıram: – Nə qədər ki güclü, qüdrətli Azərbaycan, qədirbilən millətimiz vardır, Ulu Öndər ideyaları da daim var olacaq, yaşayacaq, ölkəmizi, xalqımızı daha inamlı, əminli sabahlara aparacaq...

**Nail ƏSGƏROV**







# Əzm, iradə və zərifliyin nəticəsi bədii gimnastika

Ölkəmizin, eləcə də muxtar respublikamızın bir sıra sahələrində olduğu kimi, idman infrastrukturunun da günün tələbləri səviyyəsində qurulması və müasirləşməni şərtləndirən başlıca amillərdən biridir. Müstəqilliyimiz dövründə idman da öz uğurları ilə Vətənimizə, bu sahədə fəallıq göstərən gənclərimizə başucalığı gətirdi. Bu gün də respublikamızda idmanın inkişafına geniş prizmadan yanaşma, o cümlədən həyata keçirilən uğurlu dövlət siyasəti öz bəhrəsini verir. Ölkədə fəaliyyət göstərən idman qurumları – Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, idman cəmiyyətləri, eləcə də Azərbaycan Gimnastika Federasiyası vahid siyasət çərçivəsində, düzgün ideya ətrafında, belə söyləmək mümkündürsə, ümumi mənafeyə xidmət edirlər. Və bütün bu yeniliklərin nəticəsidir ki, Azərbaycan dünya birliyində idman dövləti kimi də tanınır.

***İdman bədii gimnastikadan başlayır***

Respublikamızda idman və olimpiya hərəkatının inkişafını daim diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənc nəslin idmana cəlb edilməsinin vacibliyini dəfələrlə vurğulayıb: ***"İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. Mən Milli Olimpiya Komitəsinin prezidenti və ölkə Prezidenti kimi çox istəyirəm ki, Azərbaycanda idmanla məşğulolma prosesi kütləvi xarakter alsın. Artıq kütləvilik artır, ancaq istənilən səviyyədə deyildir. Hər bir vətəndaş, hər bir gənc mütləq idmanla məşğul olmalıdır. Çünki, ilk növbədə, idman sağlamlıq, sağlam həyat tərzi deməkdir".***



Müasir psixologiya elmi də təsdiq edir ki, insanın fiziki sağlamlığının əsasında məhz gimnastik hərəkətlər durur. Gimnastika bədənə çeviklik, güc və gözəllik verir, insana nəciblik hissləri aşılayır. Təsadüfi deyildir ki, qədim yunanlar idmanın bu növündən xüsusilə hərbçilərin yetişdirilməsində istifadə edirdilər. O cümlədən, olimpiya idman növlərindən biri olan gimnastika çox çətin və əzmkarlıq tələb edən sahədir.

Mütəxəssislərin yanaşmasına görə, gimnastika ilə məşğul olduqdan sonra digər idman növlərində məşq etmək olduqca asandır. Nəzərə çatdıraq ki, son illər bu idman növü ölkəmizdə kütləvi xarakter alıb. Bunu paytaxt Bakıda, eləcə də, bölgələrdə fəaliyyət göstərən gimnastika bölmələrinə gələnlərin sayının artması da sübut edir. İstər adıçəkilən idman növünün inkişafı, istərsə də bu sahədə beynəlxalq yarışların keçirilməsi istiqamətində əldə olunan (ilkin) uğurlar onu göstərir ki, muxtar respublikamızda idman siyasəti günün tələbləri səviyyəsində qurulmaqdadır.

***Muxtar respublikada bədii gimnastika inkişaf edir***

Bu gün muxtar respublikamızda idman siyasətinin düzgün müəyyənləşdirilməsi bu sahənin bir çox növləri kimi, bədii gimnastikanın da inkişafına böyük töhfə verir. Hər il gənclərimizin bədii gimnastikaya olan marağı daha da artır və peşəkar idmançılar ölkəmizi uğurla təmsil edirlər. Gənclərimiz yaxşı bilirlər ki, gimnastika idman növü onların fiziki və mənəvi tərbiyəsində xüsusi rola malikdir. Hətta peşəkar idmançıların "idman gimnastikadan başlayır" fikri də söylədiklərimizi təsdiq edir.

Muxtar respublikada bədii gimnastikanın təşəkkül və inkişaf tarixi, əsasən, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində 2014-cü ildə fəaliyyətə başlamış bölmə, sonra isə onun əsasında yaradılmış "Xatun" Bədii Gimnastika İdman Klubu ilə bağlıdır. İlk vaxtlarda Humay Qafarovanın məşqçilik etdiyi kiçik qruplar vasitəsilə azyaşlı bədii gimnastlar formalaşmağa başlayıb. Nazirlik vasitəsilə bədii gimnastika sahəsində dövlətimiz tərəfindən dəstək xarakterli işlər görülüb, bu sahədə texniki təchizat gücləndirilib, məşq üçün ayrıca zal ayrılıb. 2020-ci ildə indiki Naxçıvan Atletika Federasiyası yaradıldıqdan sonra sözügedən klub federasiyanın tərkibinə daxil edilib. Sonra da federasiyanın ümumi bölməsi kimi bu sahədə fəaliyyətini davam etdirməyə başlayıb.

Qeyd etmək yerinə düşər ki, bu gün muxtar respublikamızda yetişməkdə olan gənc nəslin, şagirdlərin təhsili ilə yanaşı, onların sağlam həyat tərzinə istiqamətləndirilməsi, fiziki və mənəvi hazırlığının yüksəldilməsi, idmana marağının artırılması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Görülən işlərin nəticəsidir ki, qədim yurd yerimizdə fəaliyyət göstərən ümumi təhsil müəssisələrində futbol, minifutbol meydançaları, iki yüzdən çox idman zalı və açıq idman qurğuları, şahmat sinifləri mövcuddur. Həmçinin təhsil müəssisələrində 100-dən çox idman klubu yaradılıb. Bunlardan 29-u atletika, 2-si ağır atletika, 7-si isə bədii gimnastika klubudur. Hazırda Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının tərkibində fəaliyyət göstərən bədii gimnastika bölməsinin Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, Naxçıvan Qızlar Liseyi, Naxçıvan Dövlət Texniki Kolleci, Naxçıvan şəhər, Şərur və Ordubad rayonlarının uşaq-gənclər idman məktəblərində ona yaxın qrupu yaradılıb. Bu qruplarda 200-ə yaxın uşaq gimnastikanın sirlərinə yiyələnir.



***Bədii gimnastika bir çox uğurlarla yadda qaldı***

Atletika Federasiyasının nəzdində bölmə və qruplar şəklində fəaliyyəti tənzimlənən bədii gimnastikanın muxtar respublikada inkişafı, kütləvi hal alması üçün xeyli işlər görülüb. İlk olaraq federasiya kadr çatışmazlığını aradan qaldırmaq, peşəkar məşqçi-müəllimlər hazırlamaq üçün 2021-ci ilin may ayında məşqçilər üçün praktiki seminar təşkil edib. 15 məşqçi-müəllimin sertifikat aldığı seminar bədii gimnastikanın diyarımızda inkişafına ciddi şəkildə təkan verib. 2022-ci ilin yanvar ayında federasiyanın baş məşqçisi, idman ustası Humay Qafarovanın Azərbaycan Gimnastika Federasiyasının məşqçilər üçün Bakı şəhərində təşkil etdiyi seminarda iştirakını təmin etməklə kadr hazırlığına nə qədər önəm verdiyini bir daha göstərmiş olub. Bu mənada, Azərbaycan Gimnastika Federasiyasının təşəbbüskarlığı və dəstəyi də xüsusi vurğulanmalıdır. Federasiya tərəfindən bütün regionların məşqçi və idmançılarını əhatə edən təlim-məşq toplanışlarının təşkili davamlı xarakter alıb.



Ümumiyyətlə, ötən ili Atletika Federasiyası üçün uğurlu hesab etmək olar. Aprel ayında Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində ilk dəfə olaraq muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin gimnastika dərnəyi üzvlərinin bədii gimnastika üzrə nümunəvi çıxışları təşkil edilib. Tədbirdə iştirak edən gimnastlar və onların məşqçi-müəllimləri diplom və hədiyyələrlə mükafatlandırılıb. Bu müddət ərzində federasiyanın baş məşqçisi, idman ustası Humay Qafarova Azərbaycan milli komandasının heyətində İsveçrənin Nevşatel şəhərində keçirilən "European Gym For Life Challange" və "EUROGYM 2022" festivallarında iştirak edib və ikinci olub. İyul ayında Azərbaycan Gimnastika Federasiyasının məşqçi-müəllimi Züleyxa İsmayılova və xoreoqraf Sənan Məmmədli tərəfindən keçirilən bədii gimnastika və xoreoqrafiya kurslarında iştirak edən 14 məşqçi-müəllim sertifikatla təltif olunub. Sentyabr ayında isə Azərbaycan Gimnastika Federasiyasının yenidən qurulmasının 20 illiyinə həsr olunmuş gimnastika hamı üçün növü üzrə festival keçirilib. Burada ölkənin 23 komandasının tərkibində 200-dək idmançı mübarizə aparıb. Festivalda Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının Bədii gimnastika bölməsinin üzvləri də iştirak ediblər. Bir məşqçi və 7 idmançı ilə təmsil olunan komandamız adını qaliblər sırasına yazdırıb. Son olaraq onu da qeyd edək ki, Naxçıvanda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bədii gimnastika üzrə "Grace of Nature" beynəlxalq turnirinin keçirilməsi muxtar respublikamızda adıçəkilən idman növünün daha da inkişaf etməsinə, ölkəmizin tanıdılmasına və kütləviliyin artmasına zəmin yaradıb. Yeri gəlmişkən bu turnirdə iki idmançı mükafatçılar sırasına düşüb. Elə ölkə başçısı cənab İlham Əliyevin də söylədiyi kimi: ***"İdman da həyatımızın tərkib hissəsi olduğu üçün əlbəttə ki, ümumi tendensiya çərçivəsində inkişaf etmişdir. Bunu həm idmançılarımızın qələbələri göstərir, eyni zamanda ölkəmizdə keçirilmiş müxtəlif beynəlxalq yarışlar Azərbaycanı bir daha idman ölkəsi kimi təsdiqləyir. Bütövlükdə, son illərdə aparılan siyasət bu gün öz gözəl nəticələrini verməkdədir".***

**Məcid RƏŞADƏTOĞLU**

# Mehriban missiya

### Sağlamlıq imkanları məhdud uşaqlar dövlətin diqqət və qayğısı ilə əhatə olunublar













Uşaqlar Allahın insana bəxş etdiyi ən şirin paydır. Onların təbəssüm və sevincləri bütün dünyanı isidir.

Müstəqil dövlətimizin qurucusu Ümummilli Liderimiz Heydər Əliyevin xatirəsini yaşadan Heydər Əliyev Fondunun çoxsaxəli fəaliyyəti, xeyirxah və humanist insani dəyərlərə əsaslanan siyasəti uşaqları da əhatə edib. Fondun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın həyata keçirdiyi xeyirxahlıq missiyası sağlamlıq imkanları məhdud, xüsusi dəstəyə, qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyasında mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan məhdud fiziki imkanlı insanlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin 2010-cu il oktyabrın 5-də Prezident cənab İlham Əliyevin iştirakı ilə açılışı olub. Mərkəzin xidmətindən Naxçıvan şəhəri daxil olmaqla muxtar respublikanın 7 rayonunda yaşayan fiziki məhdudiyyətli insanlar istifadə edirlər. Hazırda mərkəzdə 121 uşaq qeydiyyatdadır.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin tərkibində fəaliyyət göstərən mərkəzdə mövcud olan çoxsaylı reabilitasiya bölmələri uşaqların eşitmə, danışma, oxuma, yazma, anlama qabiliyyətlərinin təkmilləşməsində mühüm rol oynayır. Daktil əlifba və jest dili üzrə keçilən dərslər uşaqların eşitmə və danışması, xüsusi proqramlarla təchiz olunmuş kompüterlər, brayl kitablar, fərdi şəkildə təşkil edilən brayl kursları görmə qabiliyyəti məhdud uşaqların oxuma və yazması üçün xüsusi imkanlar yaradır. Mərkəzdə brayl əlifbası ilə “Könül işığı” adlı aylıq jurnalın, məktəbli oxucular üçün “Şəfəq” jurnalının xüsusi buraxılışı da çap edilir.

Defektoloji bölmənin müəllimləri zehni inkişafın ləngiməsi və nitq məhdudiyyəti olan uşaqların reabilitasiyasına nail olur, onların cəmiyyətə adaptasiyasını təmin edir. Həmçinin bu bölmədə ehtiyac olduğu təqdirdə benefisiarlara loqopedik masaj da tətbiq olunur. Defektoloji xidmətlərə əlçatanlığın təmin edilməsi üçün bu bölmənin Şərur və Ordubad rayonlarında filialları da fəaliyyət göstərir. Psixoloji dəstək xidmətinə müraciət edən hər bir uşaqla isə fərdi şəkildə konsultasiya aparıldıqdan sonra onların müvafiq bölmələrə yönləndirilməsi həyata keçirilir. Konsultasiya zamanı mərkəzə müraciət edənlərə müxtəlif psixoloji və inkişaf testləri tətbiq edilir ki, bu da onların ilkin bacarıqlarının müəyyən edilməsində mühüm rol oynayır. Ümumiyyətlə, əqli potensialı zəif olan uşaqların psixi və nitqinin inkişafında sosial reabilitasiya mühüm əhəmiyyət kəsb edir. Mərkəzə müraciət edən bu kateqoriyadan olan autizm, daun sindromlu, psixi inkişafın ləngiməsi, serebral iflic, əqli inkişafın geriliyi və sair olan uşaqlarla aparılan təlim zamanı bir sıra xüsusi proqram və terapiyalardan istifadə edilir. Mərkəzdə tətbiq olunan qrup, kukla, nağıl və oyun terapiyaları onların inkişafında və cəmiyyətə adaptasiyasında əvəzsiz rol oynayır. Diqqət dağınıqlığı, bədən, əl və göz koordinasiyasında problemi olan uşaqların reabilitasiyasında kinnect oyunlar bölməsindən də istifadə edilir.

Əmək terapiyası bölməsi uşaqlar üçün xüsusi maraq kəsb edir. Əmək terapiyasının tikmə-biçmə, kəsib yapışdırma, plastilin işi, rəsm, quraşdırma və sair növləri uşaqlarda əmək qabiliyyətinin inkişafı üçün əsas vasitədir. Hiperaktiv və diqqət zəifliyindən əziyyət çəkən uşaqların reabilitasiyasını təmin etmək üçün təlim-bərpa, eləcə də musiqi terapiyası kimi xidmətlər göstərilir. Musiqi terapiyası bölməsinə müraciət edən uşaqların müvafiq istiqamət üzrə istedadları aşkarlanır və bu yöndə inkişaf etdirilir. Müxtəlif tarixi və əlamətdar günlərdə məhz musiqi terapiyası bölməsinin iştirakçılarının ifasında müxtəlif mahnılar təqdim olunur. Bu isə terapiyanın əhəmiyyət dərəcəsinin nə qədər böyük olduğunu bir daha göstərir. Eyni zamanda əmək terapiyası bölməsi uşaqlarının əl işlərindən ibarət sərgilər təşkil edilir. Hazırda mərkəzin reabilitasiya bölmələrindən 100-dən çox benefisiar yararlanır.

Mərkəzin təlimçi psixo-pedaqoqu ***Ağabəyim Bağırova*** əqli potensialı, qavraması zəif olan, autistik spektor pozuntusu, autizm və daun sindromu, psixi inkişafın ləngiməsi olan uşaqlarla işləyir. O bildirdi ki, anlama-qavrama qabiliyyəti zəif olan, autizm spektor pozuntusu diaqnozu qoyulmuş uşaqlarda əvvəlcə ABA terapiyasından istifadə edilir, daha sonra onlar digər bölmələrə yönləndirilir. Uşaqlarda böyük irəliləyiş vardır. Sentyabr ayından bir çox uşaq məktəbə, bağçalara yola salınıb. Gördük ki, Ağabəyim müəllimin məşğul olduğu 3 yaşlı Zöhrə onun dediklərini təkrar edir və bu qabiliyyəti onu da sevindirirdi. Müəllim deyir ki, Zöhrədə çox irəliləyiş var, əvvəl gələndə ünsiyyəti yox idi, az-az olsa da, sualları başa düşməyə başlayıb, qardaşı ilə ünsiyyəti yox idi, indi onunla ünsiyyət qurur, əvvəl anasını adlandıra bilmirdi, indi adlandırmağa başlayıb. Zöhrənin anası ***Məsmə İsmayılova***nın sözlərinə görə, Zöhrə onun əkiz övladlarından biridir: – Qızım danışmırdı. Keçən ilin sentyabr ayından bura gəlir. Qısa müddət olmasına baxmayaraq, irəliləyiş çoxdur. İndi “ana, ata”, – deyir, dediyimiz sözləri başa düşür. Müəllimlərinə çox təşəkkür edirəm, mənim kimi digər valideynlərin də bu mərkəzdən yararlanmasını istəyirəm.

Mərkəzin defektoloq-loqopedi ***Leyla Əliyeva*** autizm, kəkələmə, serebral iflic olan 17 uşaqla məşğul olur. Müəllimin məşğul olduğu Şəfa Süleymanzadə artıq VI sinifdə oxuyur və rəsm üzərində muncuqla maraqlı əl işləri hazırlayır. Bu onu göstərir ki, Şəfa gələcəkdə yaxşı rəssam ola bilər. Təlimçi-surdoloq ***Dilbər Qədimova***, əsasən, eşitmə məhdudiyyətli uşaqlara Azərbaycan dili və riyaziyyat dərslərini jest dilində tədris edir. Mərkəzin əmək terapiyası üzrə təlimçisi ***Elnarə Vəliyeva*** uşaqların əllərindən tutub, onlara rəsmlər çəkməyi, müxtəlif aplikasiyalar etməyi, tikiş, toxuma işlərini öyrədir. 25 uşaqla məşğul olduğunu deyən Elnarə xanım 100-dən çox əl işinin müxtəlif sərgilərdə nümayiş etdirildiyini və uşaqların diplomla, Fəxri fərmanlarla təltif olunduğunu və bunun onlar üçün böyük stimul yaratdığını dedi.

Mərkəzdə gözdən əlil və görmə qabiliyyəti zəif olan insanların brayl monitorları vasitəsilə internetə daxil olaraq informasiya əldə etməsi və informasiyanı brayl printerləri ilə çap etmələri üçün lazımi şərait yaradılıb. 2012-ci ildən mərkəzdə çalışan ***Elmaddin Kərimov*** isə gözdən əlillərin kompüter üzrə təlimatçısıdır. Bununla yanaşı, o, müraciətlər edildikdə təmənnasız olaraq brayl əlifbasını da öyrədir, onların proqram təminatı ilə bağlı problemləri olarsa, köməklik göstərir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və fondun vitse-prezidenti Leyla Əliyevanın sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi sevgi, diqqət hər kəsə nümunədir. Bu nümunəni fondun yaratdığı məhdud fiziki imkanlı insanlar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin timsalında da görmək olar. Gələn onlardan qayğımızı əsirgəməyək!..

**Güntac ŞAHMƏMMƏDLİ**

## Həmyerlimiz (Babək rayonu) magistratura imtahanında ölkə birincisi oldu



Babək rayonunun Qaraqala kəndindən olan Gültən Məhərrəmli yaxın günlərdə keçirilən ali təhsil müəssisələrinin magistraturalarının qəbul imtahanında 95 bal üzərindən 93 bal toplayaraq ölkə birincisi olub.

Telefon əlaqəsi saxladığımız Gültən Məhərrəmli bildirdi ki, hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin İnformasiya texnologiyaları ixtisası üzrə IV kursunda təhsil alır. Əlavə etdi ki, bu ali təhsil ocağında mükəmməl biliklərə yiyələnib. O, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət informasiya sistemlərinin təhlükəsizliyi ixtisaslaşması üzrə təhsilini davam etdirmək arzusundadır.

Həmyerlimizi təbrik edir, uğurlar arzulayırıq.



*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində bir şəhid anasının övladı haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Oğuzkəndindən olan şəhidimiz Əli Yusifovun anası Bəturə Yusifovanın, Kəngərli rayonunun Qabıllı kəndindən olan şəhidimiz Həmid Qasımovun anası Tovuz Qasımova və Culfa rayonunun Kırna kəndindən olan şəhidimiz Ramazan Göydağlının anası Zülfinaz Əliyevanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Əli Süləddin oğlu Yusifov

*(14.08.1997-29.04.2021)*

### Şəhidlik hər kəsə qismət olmur





Əli çox ağıllı, tərbiyəli, sözə qulaq asan oğul idi. İnanın ki, qohum-qonşu onun başına and içirdi. Çox istiqanlı idi. Buna baxmayaraq, dərdini heç kimlə bölüşməzdi. Bakıda akademiyada oxuyanda da öz problemlərini özü həll edərdi. İstəmirdi ki, onun çətinliklərini biz bilək, narahat olaq.

Məktəbdə çox yaxşı oxuyurdu. Valideyn iclaslarının heç birində müəllimlər narazılıq etməzdilər. İdman yarışlarında da çox fəallıq göstərirdi. Bir il üç ay xidmətdə oldu. Oradan da Fəxri fərmanlar aldı.

Hərbçi olmağı da özü seçdi. Bu sahəyə həvəsli olması nəsildən gəlib. Əlinin ata babası 1941-1945-ci illər müharibəsi zamanı itkin düşüb. Hətta mənim babam da həmin müharibədə döyüşüb.



Sonuncu dəfə sentyabrın 26-sı gecə saat 12-də danışdıq. Görüntülü danışırdıq. Biz onunla danışa-danışa əsgəri içəri daxil oldu. Dedi ki, komandir hazırıq. Gedirik. Atasına, inşallah, görüşərik, – dedi. Bizə sonuncu sözü o oldu. Ayın 3-ü saat 9-un yarısı nişanlısı ilə danışıb. Nişanlısına da deyib ki, qələbə bizimlədir. Narahat olmayın. Torpaqlarımızı alacağıq. Nişanlısı deyir ki, çox sevinirdi. Elə bil, Qarabağı azad etmişdi. Elə həmin gün itkin düşüb.

Yaralı əsgərini Füzuliyə apararkən dumanlı havada itkin düşüb. Yeddi ay oğlum tapılmadı. Bir neçə dəfə ermənilər Əli ilə yaralı əsgərinin şəklini paylaşdılar. Deyirdilər ki, əsirdirlər. Bizim dövlət orqanlarımız araşdırdılar ki, yalan məlumatdır. 2021-ci il aprel ayının 29-da ermənilər nəşinin yerini dedi balamın. Əli ilə əsgərinin nəşləri birlikdə deyilən yerdən tapıldı. Əlinin şəxsiyyət vəsiqəsi, hərbi vəsiqəsi parçalanmış vəziyyətdə üstündə idi. Oktyabrın 4-də şəhid olub Əli. May ayının 3-də balam dəfn edildi.

Biz çox darıxırıq Əli üçün. Amma çox da qürurluyuq. Bu şəhidlik mərtəbəsi hər kəsə qismət olmur. Bu gün alnıaçıq, fəxrlə balamızı yaşadırıq. Vətən sağ olsun!

## Həmid Oruc oğlu Qasımov

*(11.05.1994-03.10.2020)*

### Üzündə sanki nur var idi



Həmid haqqında olan hər şeyi xatırlayıram. Onu demək istəyirəm ki, bu həyatda heç nə təsadüf deyil. Mübariz İbrahimov şəhid olanda, 2010-cu ildə Həmid hərbi liseyin II kursunda oxuyurdu. O vaxt evdə ancaq Mübarizdən danışırdıq. Həm fəxr edirdim, həm də fikirləşirdim ki, Mübarizin anası, görəsən, necə qadındır. Hətta gözümdə belə cüssəli, hündür qadın canlanırdı. Deyirdim ki, o oğulu necə böyüdüb? Necə böyük ürək sahibidir o ana.



Qismət elə gətirdi ki, könüllü yazılaraq Mübariz postuna getdi. Şəhid olan günü Həmid gedib Mübarizin otağında oturub. Zabit yoldaşı deyir ki, səhərə qədər Həmid o otaqda oturdu. Yatmayıb səhərə qədər. Elə Mübarizin postunda da şəhid oldu. Həmin postu da öz bölüyü ilə Həmid yarıb.

Həmidin üzündə sanki nur var idi. Axırıncı dəfə avqustun 4-ü evdən getdi. Həmişə gedəndə öpür, sonra ona üzərlik yandırırdım. Həmin gün qapıdan çıxanda dayandı. Gülümsədi. Dedi ki, ana, bilirəm öpüb, sonra üzərlik yandıracaqsan. Hər dəfə üzündən və alnından öpərdim. Bu dəfə qeyri-ixtiyari boynundan öpdüm. Zabit yoldaşları deyir ki, Həmid boynundan vurulub. Fikirləşirəm ki, bu, Allahın qismətidir. Mən balamın güllə dəyən yerindən öpmüşəm. Bunu heç vaxt unuda bilmirəm.




Hər il avqustun 4-ü bizim həyətə qırmızı göyərçin gəlir. Birinci dəfə bunu hiss etmədim. Sonrakı il ağlaya-ağlaya küçəyə çıxırdım. Fikirləşirdim ki, Həmidi buradan yola saldım, əl elədim. Sanki boğulurdum. Birdən şaqqıltıya döndüm. Dedim, görəsən, bu nə səsdir. Döndüm ki, hasara qıpqırmızı bir göyərçin qonub. Elə bil xına qoymusan. Mən göyərçinə baxırdım. Göyərçin də boynunu çiyninə qoyub mənə baxırdı. Özümdən asılı olmadan dedim ki, Həmid sənsən? Elə bil, göyərçin sevindi. Qanadını çırpıb göyə qalxdı. Saatlarla həyətdə rəqs etdi. Mən hesab etdim ki, Həmidin ruhudu. Bu mənə çox təsəlli oldu. Sanki göyərçin mənə övladımın, Həmidimin ümidini gətirmişdi.

## Ramazan Əbülfət oğlu Göydağlı

*(04.02.1997-28.10.2020)*

### Dostluğa sadiq şəhidimiz





Ramazan çox qayğıkeş, ağıllı, hər şeyi fikirləşən oğul idi. Sanki məktəbdə oxuduğu vaxtdan şəhid olacağını bilirdi. Düzünü deyim ki, zəif oxuyurdu. Sinif yoldaşlarının uğurlarına çox sevinirdi. Bir dəfə X sinifdə oxuyanda sinif yoldaşlarına deyib ki, sizin on ildə qazandığınızı mən on gündə qazanacağam.

Balaca vaxtı o qədər şuluqçu olub ki, sözlə ifadə etmək çətindir. Hara aparırdımsa, köynəyindən yapışırdım ki, getsə, tapa bilməyəcəyəm. Özü harasa tək gedəndə bir şuluqluq salmalıydı. Ona görə də yanıma gəlmək istəmirdi ki, şuluq etməsini əngəlləyəcəyəm. IX sinfə qədər məktəbdə də nadinclik edib. Amma sonra tamam dəyişdi. Gördük ki, həmin uşaqdan əsər-əlamət qalmayıb.

Ramazan çox yerlərdə işləmişdi. Bakıda, Qazaxıstanda, Türkiyədə, Naxçıvan şəhərində. Hər yerdə də hörmət qazanmışdı. Hətta şəhid olanda biz burada, dostları Masazırda ona yas saxlayırdılar. Haraya gedərdi, mütləq onun çoxlu dostları olardı həmin yerdə. Çox mehriban, ürəyi təmiz, dostluğa sadiq idi Ramazan.

Polis məktəbinə sənədlərin vermişdi. Gedib imtahanda da iştirak etdi. Sonra məktəbdən kəndin sahə müvəkkilinə zəng vururlar ki, Ramazan Göydağlı gəlsin məktəbə. Sahə müvəkkili də Ramazana deyir. Ramazan razı olmur, imtina edir. Deyir ki, mən hərbçi olacağam.



Müharibəyə gedən günü evə gəldi. Otağına girdi. Evin hər yerini gəzdi. Dedi ki, ana, mən Füzuliyə gedirəm. Gedəndə qohumumuz apardı. Yolda ona deyib ki, gedirəm ya əsl hərbçi olacağam, ya da heç vaxt işləməyəcəyəm. Getdi. Dediyi kimi də oldu. Canını Vətəninə fəda etdi.

Gedəndən hər danışdıqca deyirdi ki, ana, hər şey yaxşıdı. Bir dəfə də olsun müharibədən, çətin vəziyyətdən danışmadı.

Şəhid olan gecəsi yuxuda gördüm ki, bacımla Ramazan Kərbəlaya gedir. Demək, mən o yuxunu görəndə Ramazan şəhid olub. Səhər durdum. Yuxunu fikirləşə-fikirləşə həyəti süpürürdüm. Birdən başımı qaldırdım. Baxıb gördüm ki, bütün ağacların yarpaqları hamısı başlarını aşağı salıb. Mən üç ildir ki, yaşadığım o anın təsirindən hələ də çıxa bilməmişəm. Hər zaman deyirəm ki, o ağaclar, bitkilər mənə balamın şəhid xəbərini verib.

Bizim balalarımızın hər biri qəhrəmandır!

# Ruhun pərvazlanır, Yaradana çatırsan...



# Bura qürur qalasıdır!

**Əcdadlarımızın mübarizə əzminin daşlaşmış salnaməsi, dönməzlik simvoludur. Qatları dərindən də dərindir. Tarixin hər səhifəsində izi, nəfəsi var bu yerin. Əzəmətlidir... Əzəmətli olduğu qədər də sərt, məğrur, qüdrətli. Elə qüdrətlidir ki, özünü arxalı, dayaqlı hiss edirsən yanında. Hər pilləni qalxdıqca sanki Tanrıya yaxınlaşırsan. Ucaldıqca ucalırsan, Yaradana çatırsan. Bu yer ruhunun pərvazlandığı məkandır... İlk baxışda rəngsiz görünür. Amma könül gözü ilə seyrinə çıxanlar üçün o rəngarəngdir, füsunkardır, bənzərsizdir, nadirdir.**



Məğrurdur, azad bir məmləkətin qalib ordusutək. Kiminə vahiməlidir, səmasında dövrə vuran qartallar qədər. Kiminə güvənlidir, qayğıkeş anatək sənə doğma qucaq açır, ruhunu ağuşuna alır. Bu qalada dil heyrətdən susur, söz aciz qalır, sinəndə həzin bir nəğmə sənə layla çalır. Bu nəğmə öz ahənginə səsləyir səni, ruhun dinlənir, mənən dinclik tapırsan. Bu yer mehribandır, əhvali-ruhiyyəsini duyanlara mistik duyğular yaşadır. O duyğu ki sirli-sehrli bir enerji, fərqli bir auradır. Qoynunda o qədər məsumlaşır, paklaşırsan ki, o paklığı duymaq üçün onunla baş-başa qalmalısan. Onun harmoniyasına uyğunlaşmalı, eyniləşməli, uca bir məqama çatmalısan. Elə onun qədər ülvi, əzəmətli bir məqama... Seyr etməklə, qulaq verməklə, dinləyib anlaya bilməzsən onu. İzaholunmaz, anlaşılmazdır, amma mürəkkəb olduğu qədər də, əslində, sadədir ruhunu ona təslim edənlərə...

Yalçın qayaların zirvəsində Vətəninə keşik çəkən çinar qamətli, dağ qüdrətli əsgərdir sanki bu qala. Şərəfli tarixin minillik əzəmətindən boylanan Əlincəqala... O Əlincəqala ki Əmir Teymur kimi yenilməz fatehin aramsız hücumlarına 14 il sinə gərib, heç vaxt qəddini yadlara əyməyib. O təkcə şərəfli tariximizin şahidi olmayıb, eyni zamanda onu yaradan xalqın istedad və zəkasının məhsulu, mədəni səviyyəsinin meyarı, əcdadlarımızın gücünün, qüdrətinin sübutu, tariximizin ən səs-küylü, ən həlledici dönəmlərinin yadigarı olub. Bu məğrur qala əyilməz bir xalqın, bir ulusun əmanətidir. O, açılmayan sirli bir aləm, tarixin gizli həqiqətidir. Bu divarlar arxasında igidlərimiz cəsarətlə sinələrini düşmənə sipər edib. Mərd ərənlər şahin olub düşmənin başına şığıyıb, od ələyib. Bu şücaətli qala biləklərdə güc olub, yaddaşlara yaddaş olub, əsrləri yola salıb. Neçə-neçə qoşunların qarşısında inamla, hünərlə dayanıb.

Bir zamanlar hakim xanədanlara – Səlcuqlara, Atabəylərə, Səfəvilərə istehkam olan, əzəmətli Əlincəqala! Sən dövranın gərdişinə mətanətlə sinə gərmisən, neçə sınaqlardan keçmisən, amma mətin dayanmısan, yenilməmisən! Keşməkeşli tarixini vərəqlədikcə hünərinə baş əyirik mübarizliyinin! Minnətdarlıq hissi ilə anırıq müdafiəndə böyük xidməti olan hürufiləri... Mərd Nəimini, qorxu bilməz Nəsimini! Teymurləngin oğlu Miranşahın əmri ilə dara çəkilən, cəsədi at quyruğuna bağlanıb süründürülən Nəiminin mərdliyinin şahidi Əlincəqala! İndi onun uyuduğu məzara keşik çəkirsən... Amma artıq nə zalım Miranşah var, nə də onun atlarının ayaq izləri... Tarixdə qalan sənsən! Əcdadlarımızın əyilməzlik, mərdlik, şücaət rəmzi Əlincəqala! Sənin ülviliyindən ilhamlanan Nuh Peyğəmbər nəticəsi Alıncaya sənin kimi başuca, üzüağ olsun deyə adını verib! Ulu dastanımız "Kitabi-Dədə Qorqud"da Oğuz elinin ərənlərinə şərəf zindanı olmusan, sən! Ulularımız doğma torpağı qorumağın, Vətən üçün savaşmağın, döyüşməyin, yeri gəlsə, ölümə belə getməyin nümunəsini səndə yaradıb. Vətən eşqiylə yaşayanların azadlıq uğrunda mübarizəsinin, işğalçılara qarşı qanlı döyüşlərin şahidi olan, tarixin keşməkeşlərinə mətinliklə sinə gərən Əlincəqala! Min illərdir, tarix ümmanında yol alanlara sən mayak olmusan!

...Deyirlər, ot kökü üstündə bitər. Vətən eşqi qəlbində yanıb-alışan əcdadların ürəyindən od alıb, cəsarətindən güc alıb, qəlbindəki azadlıq yanğısını alovlandırıb zəfər çaldılar Vətənimizə göz dikən mənfur düşmən üzərində igid oğullarımız... Mərd-mərdanə igidlərin hünəridir bu gün tarixilik zirvəsi olan Əlincəqalada, vətənpərvərlik zirvəsi olan Şuşa qalasında üçrəngli bayrağımızı məğrur-məğrur dalğalandıran. Sən daim qürurla dalğalan, şanlı bayrağım, haqqındır! Sənə ən uca zirvələrdə dalğalanmaq yaraşır! Torpağının qoynuna sancılaraq sənin Vətən etdiyin bu yerlərdə uğrunda can verən, qan tökən əcdadlarının ruhu indi şaddır! Çünki artıq Vətən aşiqlərinin Vətəni bütövdür, tamdır!

Gülcamal TAHİROVA



# Bağışla, mən bilmədim, sən Salamməlik perronundan keçən sonuncu qatarsan!




Tanrı gözəl duyğuları yaşamağı ürəkdən hiss edən bütün insanlara xoşbəxtliyi ovuc içlərində nəsib edir. Budur, min bir həvəslə, istəklə, sevinclə, əziyyətlə addım-addım Ordubadın Kotam kəndindəki Zəngəzura açılan perronu Salamməlikdəyəm. Bu tarixi binada, bu möhtəşəm perronda duyğuları izhar etmək çox çətindir. Sonuncu qatarın sanki fitini eşidir, ürkək baxışlarım, titrək ayaqlarımla, uşaq təbəssümü yaranır çöhrəmdə. İllərə, yollara, sərnişinlərinə, ona əzəli və əbədi sadiq olan Araza bu qoca və yaşlı bina qürurla dirayət göstərir, bir an belə yıxılmaq, dağılmaq, yox olmaq istəmir. Axı necə yox olsun o canlı tarix. Zamanın sınaqlarından güllə yaraları ilə üzüağ çıxan bir tarix ölərmi? Xeyr, o ölməyib, qarşımızdadır. Bizi əvvəlki kimi salamlayır, sevinir və təbəssüm edir. Qəlbim dağa dönür bu perronda. Sanki hiss edirəm, Zəngəzura gedəcək ilk qatarın sərnişiniyəm.

Perrondakı qoca tut ağacı da illərin sərt rüzgarına boy verib öz sərnişinlərinin yolunu gözləyir. Axı o ağac kölgəsinə sığınan həsrətli sakinlərini öz sərinliyinə qonaq etməyin, dadlı və şirin meyvəsindən dadmağın intizarını çəkir. Axı o şən-şaqraq uşaq səslərinə, deyib-gülən sərnişinlərin baxışına həsrət qalıb. Həsrət qalıb cavanların itələşə-itələşə, dartına-dartına stansiyada qatarın açılan qapılarına basabasla daxil olmasına. Həsrət qalıb alverçilərin vurhavuruna, tuthatutuna, qaçhaqaçına. Həsrət qalıb qonaq yolu gözləyənlərin göynəyən gözlərinə. Həsrət qalıb əsgər yolu gözləyən anaların ağ örpəyinə. Həsrət qalıb nişanlı qızların ürkək baxışlarına. Həsrət qalıb həsrətin özünə. Həsrətdə belə ağır gəlirmiş həsrətin tərəzisində?!

İtkilər çox ağır olur. İnsanoğlu heç zaman itkilərlə barışa bilmir. Yaxınlarımızı itirdiyimizdə barışa bilmədiyimiz kimi. Bəlkə də, Elxan Məmmədov da Culfa Lokomotiv Deposunda maşinist köməkçisi kimi sonuncu qatarı geri döndərdiyi gün ilə razılaşa bilməyib. 1992-ci ilin aprel ayında maşinist Tahir Abuzərovla son qatarı hərəkət etdirib bu stansiyada 8 saat gözlədikdən sonra geri dönüş edən bu adamlar axı necə razılaşa bilərlər bu tarixi ədalətsiz günlə. Bəlkə, onlar da mənim kimi ürəkdən inanırlar ki, yol qısa zamanda açılacaq və onlar yeni qatarla gözü yol çəkən sərnişinlərini Zəngəzur mahalından keçərək paytaxt Bakıya aparacaqlar.

Vaxtilə çoxlu sayda dəmir yolu həyatinin çalışdığı bu stansiya indi öz qatarlarını və sərnişinlərini ümidlə gözləməyə davam edir. Perronda tüğyan qoparan sərt rüzgar da öz hiddətini boğa bilməyərək acığını Arazdan çıxır, onun bol-bərəkətli suyunu lal qayalıqlara çırpırdı. Dünyanın hər yerində uğurla qarşılanıb əl sallayaraq yola salınan qatarları bizim iblis qonşularımız zaman-zaman güllə-baran edib yolunu kəsərək yağmalayıblar. İnsanların bir-birinə gül uzatdığı, təbəssüm etdiyi illərdə onlar bu tolerantlığa qarşı çıxaraq içlərindəki kini qusublar. Dünyada sülhün, sevginin, dostluğun simvoluna çevrilən, ölkələr arasındakı sərhədlərdə körpü rolu oynayan dəmir yollarını və perronları yararsız hala salaraq öz simalarını ortaya qoyublar.

Ümumiyyətlə, Sədərəkdən Ordubada qədər olan dəmir yolunun uzunluğu 188 kilometrdir. 1941-ci ildə istifadəyə verilən Salamməlik stansiyasından Zəngəzur mahalının Ağbənd stansiyasına qədər olan məsafə 54 kilometrdir. İki stansiya arasında isə Zərəni, Kərçivan, Mehri, Astazur, Nüvədi stansiyaları yerləşir. Cəmi 54 kilometrlik məsafədə öz içinə qapanıb barbarlıqla hökm edən bu nasil erməni milləti sanki bizim bəxtimizə yazılmış qara yazıdır. Amma unudublar ki, yazıya mütləq pozu var. Onlar hələ Arazın nəriltisini, gurultusunu, şaqqıltısını yaxşı eşitməyiblər. Hələ qaranlıq gecənin səhər doğan Günəşini görməyiblər. Bu Günəşli günlər çox yaxındır. Əlimizi atıb tuta biləcək qədər yaxındır. Əlbət bir gün...

Dəmir relslər üzərində üzü Zəngəzur istiqamətində tunel körpülərə tərəf hərəkət edirəm. İlahi! Gəncliyimdən arzularımda yarım qalan o möhtəşəm tunel körpüyə yaxınlaşıram. Hər sütunu bir qaya, hər qarışı tarix qoxur bu yerlərin. İçimdən bir dəli hıçqırıq keçir. Bilmirəm, sevincdəndir, ya kədərdən köksüm yarılır, Tanrım. Birdən boğazımdakı qəhər od püskürür. Duyğularımı gizlətmək istəməzcəsinə hönkürtüylə ağlayıram. İlahi, insanı insana qovuşduran bu tunel körpülər necə həsrət çəkib, fəryad edir. İnsan kimi əşyalar da cansızlaşıb, həsrət çəkir, sakinliyində dincəlib, səssizliyində sükuta dönüb lal-dinməz heykəl olur. Barmaqlarım toxunduqca sanki bu beton pillələrin yumşaldığını, bir anda mənimlə bərabər nəfəs alıb-verdiyini hiss edirəm. İlahi, bu doğmalıq 32 ildə heç zərrə qədər də azalmayıb. Əksinə, daha da böyüyüb, alovlanıb, şölələnibdi...

Qatar bu dünyanın cənnətidir mənə görə. Qatarı stansiyada görərkən həyəcan qarışıq xoş hisslərdən tutmuş vaqonun dəmir pillələrinə ayaqlarımı basana qədər keçirdiyim hisslər mənə o qədər məhrəmdir ki, bölüşsəm, xatirəsi itər, bəlkə də. Atam deyir, ən son 6 yaşın olarkən bu qatarla Bakıdan Naxçıvana gəlmişik. Bəlkə də, bu gün o anı hiss edirəm deyə sığınıram bu tunel körpülərə. İllərdir, içimdə yığışıb qalmış ləzzəti yaşamaq üçün o səhnəni zehnimdə təkrar-təkrar canlandırıram. Vaqonun hər pilləsinə qədəm qoyduqca sanki hansısa hündürlüyü fəth edir, dönüb son dəfə perrona baxanda vidalaşdığım o həzin günlərin kədəri içimə dolurdu. Qatar kupeləri mənə görə, doğmaları, yadları yırğalaya-yırğalaya uzaqlara aparan bir otaq, bir beşikdi. İllər sonra bu tunelə girdiyimizdə kupenin pəncərəsindən əl salladığımı xatırlayır və düşünürəm ki, bu mənim özünə stansiyadan baxan sərnişin kimi özünü yola salmaq istəyi idi. Uzaqlaşan qatarlar sanki mənim üçün uzaqlaşan adamlar idi. Bunları düşünə-düşünə otuz səkkiz yaşımda hələ də altıyaşlı uşağa çevrilməyimə sevinirəm. Çünki hər birimiz uşaqlaşdıqca məsumlaşır, məsumlaşdıqca dünyamızı gözəlləşdiririk.

Deyirlər, Zəngəzur yolu açılanda bütün qatarları ləğv edəcəklər, tək axırıncı qatardan başqa. O qatarı, yəqin ki, vağzalda muzey kimi saxlayacaqlar. Mən də qocalıb əldən düşənə qədər vəfalı sərnişin kimi darıxanda bilet alıb o qatardakı vaqonların birində əyləşəcəyəm. Pəncərədən çölə baxaraq bədənimi yırğalaya-yırğalaya xəyalən yola düşəcəyəm. Sonra yenə gözlərimi yumub Culfa Lokomotiv Deposunun maşinistləri olan Elxan Məmmədov və Tahir Abuzərovun qışqıra-qışqıra "tələsin, tez olun, gecikirik" çağırışlarının sədası altında ürəyimdə təkrar-təkrar əyləşdiyim qatara pıçıldayacağam: "Bağışla, mən bilmədim, sən Salamməlik perronundan keçən sonuncu qatarsan!"

**Fariz ƏHMƏDOV**

## Naxçıvanın incəsənət nümayəndələri Bakı şəhərində konsert proqramı ilə çıxış edib



Fevralın 14-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyi münasibətilə Naxçıvanın incəsənət nümayəndələrinin konserti keçirilib.

Konsert proqramı başlanmazdan əvvəl çıxış edən Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov muxtar respublika rəhbərliyi adından qonaqları salamlayıb. Bildirib ki, belə tədbirlərin keçirilməsi muxtar respublika mədəniyyətinin, elm və təhsil mühitinin ölkəmizdə tanıdılmasına əsas yaradır.

Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini, nazir vəzifələrinin müvəqqəti icraçısı Həsən Seyidov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən muxtar respublikada çoxsaylı tədbirlər həyata keçiriləcəkdir.

Sonra konsert proqramı təqdim olunub.

Konsert Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Fazil Mustafa, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifova, Xalq artisti, görkəmli bəstəkar Tofiq Bakıxanov, Əməkdar incəsənət xadimi Nazim Kazımov və mədəniyyət, ictimaiyyət nümayəndələri tərəfindən izlənilib.

Musiqili gecədə Naxçıvanın incəsənət nümayəndələri Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin müşayiəti ilə Azərbaycan bəstəkarlarının əsərlərini səsləndiriblər. Konsert zamanı Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli tarzən Əkrəm Məmmədlinin muxtariyyətin 100 illiyinə həsr etdiyi "Yurdum mənim" əsəri ilk dəfə ifa edilib.

Konsert proqramı Xalq artisti Gülyanaq Məmmədova və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfiqar Mahmudovun ifasında "Naxçıvan şikəstəsi" ilə sona çatıb.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti*

# Azərbaycan xalqının Ümummilli Lideri Heydər ƏLİYEV

“Naxçıvanın çox gözəllikləri var. Birincisi, onun təbiətidir. Naxçıvanın təbiətinin gözəlliyi məğrurluq rəmzidir. Bax ətrafda görünən dağlar, qayalar, çılpaq torpaqlar – burada yaşıllıq azdır – bu diyara xüsusi gözəllik verir. Ancaq bu gözəllik, yenə də deyirəm, qəhrəmanlıq, məğrurluq rəmzidir. O məğrur dağlar kimi insanlar da məğrurdurlar.”


Haçadağ

*“Şərq qapısı” qəzetinin “Naxçıvanı tanıyaq” fotosərgisi Naxçıvanın muxtariyyətinin 100 illiyinə həsr olunub. Sərgi il ərzində Bakıda və Türkiyədə də təqdim olunacaq. Bu fotosərgidə nümayiş olunan fotoları ilboyu qəzetimizin səhifələrində sizə təqdim edəcəyik.*


**Zəngəzur dağ silsiləsinin cənub yamacında, dəniz səviyyəsindən 3065 metr yüksəklikdə yerləşən Göygöl**




**Naxçıvanın qeyri-adi duz çayları və ya duz şəlalələri**

**Foto: Əli XUDİYEV**

## İtmişdir

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti (keçmiş Azadlıq prospekti), bina 44, mənzil 7-də yaşamış Məmmədova Hökumə Bayram qızının adına olan evin qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Gömür kənd sakini Yolçuyeva Gülnaz Cümşüd qızının adına verilmiş JN-0023 nömrəli, 10503018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, B.Abbasov küçəsi, döngə 4-də yaşayan İbrahimova Rəna Həsən qızının adına olan fərdi yaşayış evinin MH-0004833 nömrəli dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Sərxanlı kəndində yaşamış Fətullayev Fətulla Rıza oğlunun adına olan $13^{A}$-$13^{B}$ nömrəli şəhadətnamələr itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Rüstəmov Məzahir Cəbi oğlunun adına verilmiş JN-$1834^{A}$ nömrəli, 10304005 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Cəlilkənd kəndində yaşamış Əliyev Musa İsa oğlunun adına olan JN-196 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Yuxarı Buzqov kəndində yaşamış Eyvazov Eyvaz Hüseyn oğluna məxsus JN-$10^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Cəlilkənd sakini Həsənov Knyaz Məmməd oğlunun adına olan JN-156 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbə sakini Həsənova Qələm Həsən qızının adına verilmiş 11.06.2009-cu il tarixli, AA-003299 inventar nömrəli torpaq sahəsinin plan-ölçüsü və 12.06.2009-cu il tarixli MH-0012755 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Yengicə kənd sakini Əsədov İbrahim Musa oğlunun adına verilmiş JN-$946^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Dizə kənd sakini Quliyev Ələkbər Qulu oğlunun adına olan JN-$82^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Cəlilkənd sakini Hüseynov Faiq İsmayıl oğlunun adına olan JN-0001 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Güznüt kəndində yaşamış Əliyev Həsən İbrahim oğlunun adına olan JN-$392^{M}$, 392, $392^{N}$ və $392^{K}$ nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Əliyeva Mahirə Şəmil qızının adına olan JN-653, 10304028 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Xanlıqlar kənd sakini İsgəndərov Rövşən İsgəndər oğlunun adına olan JN-0018 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Gülmətov Samir Məmərza oğlunun adına olan gizirin SQ-0015219 nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

## Bildiriş

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin hüquqi adı və forması dəyişdirilərək “Şahbuz Tikinti MMC”-yə çevrilmişdir.

## Allah rəhmət eləsin

Hüseyn Əliyev ailəsi ilə birlikdə yaxın dostu “Naxçıvanpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Səxavət Bağırova, əzizi
**HÜSEYN RZAYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 40